**"AZMİKROİNVEST" BOKT MMC**

**MÜSTƏQİL AUDİTORLARIN RƏYİ**
**VƏ**
**MALİYYƏ HESABATLARI**

**31 DEKABR 2022**

**"AZMİKROİNVEST"**
**BANK OLMAYAN KREDİT TƏŞKİLATI MMC**
**MÜNDƏRİCAT**

**Səhifə**


| | |
|---|---|
| Müstəqil auditorların hesabatı | 3-4 |
| Maliyyə vəziyyəti haqqında hesabat | 5 |
| Məcmu gəlir haqqında hesabat | 6 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 7 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 8 |
| *Maliyyə hesabatları üzrə qeydlər* | |
| 1. Ümumi məlumat | 9 |
| 2. Əhəmiyyətli uçot qaydalarının icmalı | 9-20 |
| 3. Uçot siyasətlərinin tətbiqində rəhbərliyin əhəmiyyətli mühakiməsi | 20 |
| 4. Standartlar, şərhlər və mövcud standartlara düzəlişlər | 21-22 |
| 5. Pul vəsaitləri və onların ekvivalentləri | 22 |
| 6. Müştərilərə verilmiş kreditlər | 23-26 |
| 7. Torpaq, tikili və avadanlıqlar | 27 |
| 8. Qeyri-maddi aktivlər | 28 |
| 9. Digər aktivlər | 28 |
| 10. Banklar və digər maliyyə institutlarına borclar | 28 |
| 11. Cari mənfəət vergisi öhdəliyi | 28 |
| 12. Digər öhdəliklər | 28 |
| 13. Nizamnamə kapitalı | 29 |
| 14. Faiz gəlirləri və faiz xərcləri | 29 |
| 15. Haqq və komissiya xərcləri | 29 |
| 16. Xalis digər gəlirlər | 29 |
| 17. İnzibati və digər əməliyyat xərcləri | 30 |
| 18. Vergilər | 30-31 |
| 19. Öhdəliklər və şərti öhdəliklər | 31 |
| 20. Əlaqəli tərəflərlə əməliyyatlar | 32 |
| 21. Maliyyə risklərinin idarə edilməsi | 33-36 |
| 22. Kapitalın idarə edilməsi | 37 |
| 23. Hesabat tarixindən sonra baş vermiş hadisələr | 37 |

Moore Azerbaijan
49/C Tbilisi avenue,
Chirag Plaza Business Center, 9th floor
Baku, Azerbaijan, AZ1065
T +994 12 490 77 47/48/49
baku@moore.az
www.moore.az

## MÜSTƏQİL AUDİTORLARIN HESABATI

**"Azmikroinvest" BOKT MMC**

**Rəy**

Biz "Azmikroinvest" BOKT MMC-nin ("Təşkilat") 31 Dekabr 2022-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında, həmin tarixdə başa çatmış il üzrə məcmu gəlir haqqında, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də, əsas mühasibat prinsiplərinin icmalı da daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim fikrimizcə, maliyyə hesabatları 31 Dekabr 2022-ci il tarixinə Təşkilatın maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun olaraq düzgün və ədalətli şəkildə əks etdirir.

**Rəy üçün əsas**

Biz audit yoxlamasını Beynəlxalq Audit Standartları əsasında aparmışıq. Bu standartlar çərçivəsində nəzərdə tutulan öhdəliklərimiz hesabatımızın Maliyyə Hesabatları üzrə Auditorların Öhdəlikləri bölməsində əks olunmuşdur. Biz Peşəkar Mühasiblərin Etika Məcəlləsi üzrə Beynəlxalq Etika Standartları Şurasının (İESBA) prinsiplərinə uyğun olaraq Təşkilatdan ayrıyıq və digər etika öhdəliklərimizi bu tələblər və İESBA Kodeksi əsasında həyata keçirmişik. Biz rəyimizin əsasını təşkil edən yetərli və müvafiq audit dəlilləri əldə etdiyimizi hesab edirik.

**Izahedici paraqraf**

Diqqətinizi bu məqama yönəltmək istərdik ki, Təşkilatda 31 dekabr 2022-ci il tarixində bitən il ərzində yığılmış zərər yaranmışdır və Təşkilatın fəaliyyətinin fasiləsizliyini maliyyələşdirməsi gəlirli əməliyyatlar və/və ya əlavə maliyyə əldə edilməsindən asılıdır. Bu, Təşkilatın fasiləsiz fəaliyyət göstərməyə davam etməsi barədə şübhə yarada biləcək maddi qeyri-müəyyənliyin mövcudluğunu göstərir. Maliyyə hesabatlarına Təşkilatın davamlı olaraq fəaliyyətinə davam edə bilməməsi halında yaranan düzəlişlər daxil deyil. Buna baxmayaraq rəyimiz dəyişməz olaraq qalır.

**Rəhbərliyin və maliyyə hesabatlarının idarə edilməsi üzrə məsul tərəflərin öhdəlikləri**

Rəhbərlik bu maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq hazırlanmasına, obyektiv şəkildə təqdim edilməsinə, eləcə də, hesabatlarının saxtakarlıq və ya səhvlərdən irəli gələn əhəmiyyətli təhriflər olmadan tərtib edilməsi üçün zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən rəhbərlik Təşkilatın fəaliyyətin fasiləsizliyi prinsipi əsasında işini davam etdirmə potensialını qiymətləndirmək, müvafiq olduqda daimilik prinsipi ilə bağlı məsələləri açıqlamaq və rəhbərlik Təşkilatı ləğv etmək və ya fəaliyyətini dayandırmaq istəyənədək, yaxud bunu etmək üçün real seçimi olmayanadək hesabatlılıqda fəaliyyətin fasiləsizliyi prinsipini istifadə etmək üzrə məsuliyyət daşıyır. İdarəçilik üzrə məsul tərəflər Təşkilatın maliyyə hesabatvermə prosesinə nəzarət etmə öhdəliyi daşıyır.

**Maliyyə hesabatlarının auditi üzrə auditorlarin öhdəlikləri**

Bizim məqsədimiz bütövlükdə maliyyə hesabatlarında saxtakarlıq və ya səhvlərdən dolayı əhəmiyyətli təhriflərin mövcud olmadığına təminat vermək və rəyimizi əks etdirən auditor hesabatı təqdim etməkdir. Təminat olduqca önəmli olsa da, Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit yoxlamasının hər zaman mövcud olan təhrifləri aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlərdən irəli gələ və bu maliyyə hesabatları əsasında verilmiş iqtisadi qərarlara ciddi təsir göstərə bilər.

Beynəlxalq Audit Standartları əsasında aparılan audit yoxlamasının bir hissəsi kimi biz audit prosesində peşəkar mühakimə və peşəkar skeptisizm prinsipi tətbiq edirik. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtalaşdırma və ya səhvlərdən irəli gələn ciddi təhrif risklərini aşkarlayır və təhlil edir, bu risklərə cavab verən audit prosedurları hazırlayır və icra edir və rəyimiz üçün əsas təşkil edəcək kafi və müvafiq dəlil toplayırıq. Saxtakarlıqdan irəli gələn ciddi təhrifləri aşkarlamama riski səhvlərdən qaynaqlanan riskdən daha yüksəkdir, belə ki saxtakarlıq əlbir olma, saxtalaşdırma, məqsədli buraxma, təhrif və ya daxili nəzarətin yetərsizliyi kimi hallarla əlaqəli olur.

- Mövcud şərtlərdə müvafiq olacaq, lakin Təşkilatın daxili nəzarətinin səmərəliliyi ilə bağlı rəy bildirmək məqsədi daşımayan audit prosedurları hazırlamaq üçün auditə müvafiq daxili nəzarət haqqında anlayış əldə edirik.

- İstifadə olunan uçot siyasətlərinin, uçot smetalarının və rəhbərlik tərəfindən açıqlanan əlaqədar məlumatların müvafiqliyini təhlil edirik.

- Rəhbərliyin uçotun davamlılıq prinsipindən istifadəsinin müvafiqliyinə və Təşkilatın fəaliyyətin fasiləsizliyi prinsipini davam etdirmə imkanına dair ciddi şübhələr yarada biləcək hadisə və ya şərtlərlə əlaqədar ciddi qeyri-müəyyənliyin olub-olmaması ilə bağlı əldə edilmiş dəlillər əsasında yekun rəy bildiririk. Bizim yekun rəyimizdə ciddi qeyri-müəyyənlik mövcuddur deyilərsə, auditor hesabatımızda maliyyə hesabatlarında əlaqədar məlumatlara diqqət çəkməyimiz, yaxud da bu cür məlumatlar müvafiq olmazsa, rəyimizi dəyişdirməyimiz tələb olunur. Bizim yekun rəylərimiz auditor hesabatımızın hazırlanma tarixinədək əldə edilmiş audit dəlillərinə əsaslanır. Bununla belə, gələcək hadisə və şərtlər Təşkilatın işində fəaliyyətin fasiləsizliyi prinsipini poza bilər.

- Maliyyə hesabatlarının, o cümlədən açıqlanan məlumatların ümumi təqdimatı, strukturu və məzmunu, həmçinin hesabatların obyektiv təqdimatının əsasını təşkil edən başlıca əqd və hadisələri əks etdirib etdirmədiyini təhlil edirik.

Biz auditin və mühüm audit tapıntılarının, o cümlədən audit yoxlaması zamanı daxili nəzarətdə aşkarladığımız mühüm çatışmazlıqların nəzərdə tutulan əhatə dairəsi və zamanlaması ilə bağlı idarəetmə üzrə məsul tərəflərlə əlaqədə oluruq.

Moore Azərbaycan

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti MOORE STEPHENS AZƏRBAYCAN Limited Liability Company The Republic of Azerbaijan

Bakı, Azərbaycan Respublikası

31 mart 2023-cü il

**"AZMİKROİNVEST" BOKT MMC**
**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
**(Azərbaycan manatı ilə ifadə olunmuşdur)**

| | Qeyd | 2022 | 2021 |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | **5** | 604,171 | 401,727 |
| Müştərilərə verilmiş kreditlər | **6** | 859,851 | 1,194,242 |
| Əsas vəsaitlər | **7** | 71,759 | 96,162 |
| Qeyri-maddi aktivlər | **8** | 8,753 | 9,956 |
| Təxirə salınmış vergi aktivləri | **18** | 23,181 | 19,971 |
| Avans olaraq ödənilmiş mənfəət vergisi | **11** | 14,862 | 9,842 |
| Digər aktivlər | **9** | 2,703 | 2,235 |
| **Cəmi aktivlər** | | **1,585,280** | **1,734,135** |
| | | | |
| **Öhdəliklər** | | | |
| Banklar və digər maliyyə institutlarına olan borclar | **10** | 18,206 | 27,309 |
| Digər öhdəliklər | **12** | 8,415 | 6,136 |
| **Cəmi öhdəliklər** | | **26,621** | **33,445** |
| | | | |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | **13** | 1,650,000 | 1,700,000 |
| Bölüşdürülməmiş mənfəət/ (Yığılmış zərər) | | (91,341) | 690 |
| **Cəmi kapital** | | **1,558,659** | **1,700,690** |
| | | | |
| **Cəmi kapital və öhdəliklər** | | **1,585,280** | **1,734,135** |

AZƏRBAYCAN RESPUBLİKASI BANK OLMAYAN KREDİT TƏŞKİLATI "AZMİKROINVEST" AZMIKROINVEST AZERBAIJAN REPUBLIC

Müzəfərli Fuad
Direktor

Rəhimli Elxan
Baş Mühasib

Bakı, Azərbaycan Respublikası
31 mart 2023-cü il

**"AZMİKROİNVEST" BOKT MMC**
**MƏCMU GƏLİR HAQQINDA HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
**(Azərbaycan manatı ilə ifadə olunmuşdur)**

| | Qeyd | 2022 | 2021 |
|---|---|---|---|
| Faiz gəliri | 14 | 177,793 | 297,343 |
| Faiz xərcləri | 14 | (28) | (144) |
| **Xalis faiz gəlirləri** | | **177,765** | **297,199** |
| Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat bərpası/ (xərci) | 6 | (23,070) | 37,134 |
| **Ehtiyat ayırmalarından sonra xalis faiz gəlirləri** | | **154,695** | **334,333** |
| Haqq və komissiya xərcləri | 15 | - | (91) |
| Xalis digər gəlirlər | 16 | 5,730 | 1,143 |
| **Xalis qeyri-faiz gəlirləri** | | **5,730** | **1,052** |
| **Əməliyyat gəliri** | | **160,425** | **335,385** |
| İnzibati və digər əməliyyat xərcləri | 17 | (175,334) | (209,240) |
| **Vergidən əvvəlki mənfəət** | | **(14,909)** | **126,145** |
| Mənfəət vergisi | | 2,878 | (25,336) |
| **İl üzrə xalis mənfəət** | | **(12,031)** | **100,809** |
| Digər məcmu gəlir | | - | - |
| **İl üzrə cəmi məcmu gəlir** | | **(12,031)** | **100,809** |

AZƏRBAYCAN RESPUBLİKASI "AZMİKROİNVEST" BANK OLMAYAN KREDİT TƏŞKİLATI AZMIKROINVEST AZERBAIJAN REPUBLIC

Müzəfərli Fuad
Direktor

Rəhimli Elxan
Baş Mühasib

Bakı, Azərbaycan Respublikası

31 mart 2023-cü il

**“AZMİKROİNVEST” BOKT MMC**
**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
**(Azərbaycan manatı ilə ifadə olunmuşdur)**

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət/ (Yığılmış zərər) | Cəmi |
|---|---|---|---|
| **1 Yanvar 2021-ci il tarixinə qalıq** | **1,500,000** | **13,481** | **1,513,481** |
| Nizamnamə kapitalında artım | 200,000 | - | 200,000 |
| Elan edilmiş dividendlər | - | (113,600) | (113,600) |
| İl üzrə xalis mənfəət | - | 100,809 | 100,809 |
| **31 Dekabr 2021-ci il tarixinə qalıq** | **1,700,000** | **690** | **1,700,690** |
| Nizamnamə kapitalında azalma | (50,000) | - | (50,000) |
| İl üzrə xalis mənfəət | - | (12,031) | (12,031) |
| Elan edilmiş dividendlər | - | (80,000) | (80,000) |
| **31 Dekabr 2022-ci il tarixinə qalıq** | **1,650,000** | **(91,341)** | **1,558,659** |

AZƏRBAYCAN RESPUBLİKASI BANK OLMAYAN KREDİT AZMİKROİNVEST

Müzəfərli Fuad
Direktor

Rəhimli Elxan
Baş Mühasib

Bakı, Azərbaycan Respublikası
31 mart 2023-cü il

**"AZMİKROİNVEST" BOKT MMC**
**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
**(Azərbaycan manatı ilə ifadə olunmuşdur)**

| | Qeyd | 2022 | 2021 |
|---|---|---|---|
| **Vergidən əvvəlki mənfəət** | | (14,909) | 126,145 |
| *Düzəlişlər:* | | | |
| Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatın bərpası | | 23,070 | (37,134) |
| Əsas vəsaitlərin köhnəlməsi | | 23,066 | 17,683 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | | 2,729 | 2,379 |
| Əsas vəsaitlərin silinməsindən əldə olunan (gəlir)/zərər | | (4,983) | (519) |
| Xalis faiz gəlirləri | | (177,765) | (297,199) |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | **(148,792)** | **(188,645)** |
| Ödənilmiş faizlər | | (28) | (411) |
| Alınmış faizlər | | 178,031 | 311,791 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | | 311,083 | 308,432 |
| Digər aktivlərdə dəyişiklik | 9 | (468) | 863 |
| Digər öhdəliklərdə dəyişiklik | 12 | 2,279 | 1,616 |
| **Əməliyyat fəaliyyətindən yaranan vergidən əvvəlki pul vəsaitlərinin hərəkəti** | | **342,105** | **433,646** |
| Ödənilmiş mənfəət vergisi | | (5,352) | (39,831) |
| **Əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **336,753** | **393,815** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlərin satışından əldə olunan gəlir | | 6,500 | 8,300 |
| Əsas vəsaitlərin alınması | 7 | (180) | (108,609) |
| Qeyri-maddi aktivlərin alınması | 8 | (1,526) | (1,371) |
| **İnvestisiya fəaliyyətindən yaranan xalis pul vəsaitlərinin hərəkəti** | | **4,794** | **(101,680)** |
| **Maliyyə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | | |
| Dividend ödənişi | | (80,000) | (113,600) |
| Nizamnamə kapitalında artım | 13 | - | 200,000 |
| Nizamnamə kapitalında azalma | | (50,000) | - |
| Banklar və digər maliyyə institutlarına ödənilən vəsaitlər | | (9,103) | (61,953) |
| **Maliyyə fəaliyyətindən yaranan xalis pul vəsaitlərinin hərəkəti** | | **(139,103)** | **24,447** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis (azalma)/ artım** | | **202,444** | **316,582** |
| **Pul vəsaitləri və onların ekvivalentləri, ilin əvvəlinə** | 5 | **401,727** | **85,145** |
| **Pul vəsaitləri və onların ekvivalentləri, ilin sonuna** | 5 | **604,171** | **401,727** |

Müzəfərli Fuad
Direktor

Rəhimli Elxan
Baş Mühasib

Bakı, Azərbaycan Respublikası
31 mart 2023-cü il

9-36-cı səhifələrdə göstərilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir

## 1. ÜMUMİ MƏLUMAT

Təşkilat, Bakı Şəhəri Vergilər Departamentinin Kommersiya Hüquqi Şəxslərinin Dövlət Qeydiyyatı İdarəsində 14 aprel 2014-cü il tarixində "Azmikroinvest" Bank Olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyəti adı ilə qeydiyyatdan keçmiş və 1003333091 nömrəli VÖEN almışdır. Şirkətin 31 dekabr 2022-ci il tarixinə işçi sayı 4-dür (31 dekabr 2021-ci il: 4).

31 Dekabr 2022-ci və 2021-ci il tarixlərinə Təşkilat tamamilə Əhmədzadə İlqar Müşfiq oğluna məxsusdur.

***Təşkilatın əsas fəaliyyəti***
Təşkilatın əsas fəaliyyət sahəsi fiziki və hüquqi şəxslərə, o cümlədən sahibkarlara, az təminatlı icmalara, qaçqın və məcburi köçkünlərə və digər şəxslərə qısa və uzun müddətli kreditlərin verilməsindən ibarətdir. Təşkilat tərəfindən verilmiş kreditlər daşınar və daşınmaz əmlakın girovu, qarantiya, zaminlik və qanunvericiliklə nəzərdə tutulmuş digər üsullarla təmin oluna bilər.

***Təşkilatın hüquqi və faktiki ünvanı***
Təşkilatın hüquqi və faktiki ünvanı: Bakı şəhəri, Səbail rayonu, Qurban Abbasov küçəsi 29 (Bayıl Plaza).

***Təqdimat valyutası***
Hazırkı maliyyə hesabatlarındakı məbləğlər başqa valyuta qeyd olunmadığı halda, Azərbaycan manatı ilə ("AZN") təqdim edilir.

## 2. ƏHƏMİYYƏTLİ UÇOT QAYDALARININ İCMALI

***Təqdimatın əsasları***
Təşkilat əsas mühasibat qeydlərini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq aparır. Bu maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli ölçülərə riayət etmək üçün Təşkilatın əsas uçot qeydlərindən hazırlanmış və onlara zəruri olaraq düzəliş edilmişdir.

Bu maliyyə hesabatları, tarixi xərclər konvensiyası və Təşkilatın davamlı fəaliyyət göstərməsinə davam edəcəyi ehtimalına əsasən hazırlanır.

Bu maliyyə hesabatları 31 Dekabr 2022-ci il tarixinə bitən ili əhatə edir, müqayisəli məlumat 31 Dekabr 2021-ci il tarixinə bitən ili əhatə edir.

***Fəaliyyətin fasiləsizliyi***
Təşkilatın 31 dekabr 2022-ci il tarixində bitən il üçün (91,341) AZN məbləğində yığılmış zərər yaranmışdır. Təşkilat fəaliyyətinin fasiləsizliyinin təmin edilməsi məsələsində gəlirli əməliyyatlar və ya əlavə maliyyələşmə mənbələrinin əldə edilməsindən asılıdır.

***Təsnifləşdirmə və qiymətləndirmə***
9 saylı MHBS-yə əsasən bütün maliyyə aktivləri ilkin tanınma zamanı sair məcmu gəlirdə ədalətli dəyərlə (SMGƏD) və ya mənfəət və ya zərərdə ədalətli dəyərlə ölçülən aktivlər kimi (MZƏD) kimi təsnifləşdirilir.

Maliyyə aktivi, həm də aşağıdakı şərtləri yerinə yetirirsə və MZƏD-də göstərilmirsə, amortizasiya edilmiş dəyərlə ölçülür:

- "yığılmaq üçün saxlanılan" əsasda idarə olunan alətlər; və
- maliyyə aktivini doğuran müqavilənin şərtləri müəyyən edilmiş tarixlərdə pul vəsaitlərinin hərəkətinə (əsas məbləğ və əsas məbləğ üzrə hesablanmış faizlərin ödənişi) səbəb olur.

Borc aləti SMGƏD-də yalnız aşağıdakı şərtlərə cavab verirsə və MZƏD-də göstərilmirsə ölçülür:

- aktivin idarə edildiyi biznes modelinin məqsədi həm müqavilə üzrə nəzərdə tutulmuş pul vəsaitlərinin əldə edilməsi, həm də aktivin satışından pul vəsaitlərinin əldə edilməsidir; və
- maliyyə aktivinin müqavilə şərtləri müəyyən olunmuş tarixlərdə pul vəsaitlərinin daxil olacağını təsbit edir. Bu pul vəsaitləri həm maliyyə aktivinin ilkin dəyərinin bir hissəsindən, həm də aktivin mövcud balans dəyəri əsasında hesablanmış gəlir məbləğindən ibarətdir.

## 2. ƏHƏMİYYƏTLİ UÇOT QAYDALARININ İCMALI (DAVAMI)

***Təsnifləşdirmə və qiymətləndirmə (davamı)***

Ticarət üçün saxlanılmayan kapital investisiyalarının ilkin tanınması zamanı Təşkilat bu maliyyə alətlərinin ədalətli dəyərindəki sonrakı dəyişikliklərin həmişəlik SMG-də tanınması variantını tətbiq edə bilər. Bu seçim hər bir maliyyə aləti üzrə ayrı-ayrılıqda aparılır.

Bütün digər maliyyə aktivləri MZƏD-də ölçülmüş kimi təsnifləşdirilir.

***Dəyərdəndüşmə***

Təşkilat, amortizasiya olunmuş dəyərdə tanınan maliyyə aktivləri üzrə gözlənilən itkilər (Gİ) üçün dəyərsizləşmə ehtiyatını tanıyır.

Təşkilat, ilk 12 aylıq Gİ ölçülməsinin başlanmasından sonra kredit riskinin əhəmiyyətli dərəcədə artmadığı maliyyə alətləri istisna olmaqla, ömürboyu Gİ-yə bərabər olan məbləğdə dəyərsizləşmə ehtiyatını ölçür.

***Əsas vəsaitlər***

Əsas vəsaitlər ilkin olaraq alış dəyərində, o cümlədən aktivlərin yerinə çatdırılmasına və onların Təşkilatın rəhbərliyinin nəzərdə tutduğu tərzdə fəaliyyat göstərməsi üçün lazımi vəziyyətə gətirilməsinə sərf olunmuş bütün birbaşa xərclərin cəmi məbləğində tanınmışdır.

Bu aktivlər xərc modelindən istifadə edərək sonrakı köhnəlmə və dəyərsizləşmə zərərlərini çıxmaqla maya dəyərində ölçülür. Köhnəlmə düz xətt metodu ilə hesablanır və aşağıdakı illik dərəcələrlə silinərək tanınır:

| | Düz xətt metodu üzrə illik faiz dərəcəsi |
|---|---|
| • Mebel və ofis ləvazimatları | 25% |
| • Kompyuter və Rabitə avadanlığı | 25% |
| • Nəqliyyat vasitələri | 20% |
| • Təmir işlərinin dəyəri | 12,5% |

Köhnəlmə aktivin alındığı və ya kapitalizasiya edildiyi gündən hesablanır, aktiv silindiyi halda isə heç bir köhnəlmə həmin günə hesablanmır. Qalıq dəyərinin əhəmiyyətli hesablamaları və faydalı istifadə müddətinin hesablamaları aktivin təkrar qiymətləndirilib-qiymətləndirilmədiyindən asılı olmayaraq tələb olunduğu kimi (lakin ən azından ildə bir dəfə) yenilənir.

Əsas vəsaitlərin silinməsindən yaranan mənfəət və ya zərər silinmədən əldə edilən mədaxillə həmin əsas vəsaitlərin qalıq dəyəri arasında fərq kimi müəyyən edilir və mənfəət və ya zərərdə tanınır.

***Qeyri-maddi aktivlər***

Qeyri-maddi aktivlər, qeyri-maddi aktiv kimi tanınması üçün uyğun olan əməliyyatlar və idarəetmədə istifadə edilməsi üçün alınmış proqram təminatından ibarətdir. Qeyri-maddi aktivlər hər hesabat tarixində nəzərdən keçirilən kapitallaşdırma xərcləri və qalıq dəyəri modeli ilə uçota alınır.

Amortizasiya illik 10% dərəcə ilə düz xətt metodu üzrə tanınır və inzibati və ümumi xərclərə daxil edilir. Alınmış kompyuter proqram təminatlarının lisenziyaları müəyyən proqram təminatını almaq və quraşdırmaq üçün çəkilmiş xərclər əsasında kapitalizasiya edilir.

Kompyuter proqramı təminatının texniki təminatı, yeni proqram əlavələri və digər kiçik təkmilləşdirilmiş versiyalar, həmçinin onların quraşdırılması ilə bağlı xərclər çəkildiyi zaman xərcə silinir.

***Aktivlərin dəyərdən düşməsi***

Hər hesabat dövrünün sonunda Təşkilat əsas vəsaitləri və qeyri-maddi aktivlərin balans dəyərlərini nəzərdən keçirərək bu aktivlərdən hər hansı birinin zərər gördüyünə və dəyər itkisinə məruz qaldığına dair bir göstəriş olub-olmadığını müəyyənləşdirir. Əgər belə bir göstərici varsa, dəyərdən düşmə zərərinin dərəcəsini müəyyənləşdirmək üçün aktivin bərpa edilə bilən dəyəri qiymətləndirilir. Bərpa edilə bilən dəyər, istifadədə olan dəyərlə, satış xərcləri çıxılmaqla ədalətli dəyərin daha yüksək olanıdır.

## 3. ƏHƏMİYYƏTLİ UÇOT QAYDALARININ İCMALI (DAVAMI)

***Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri***
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri müəyyən nağd pula çevrilə bilən və dəyəri əhəmiyyətsiz dəyişiklik riskinə məruz qalan maddələrdir. Maliyyə vəziyyəti haqqında hesabatda pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri kassada olan nağd pul vəsaitlərini, banklarda cari hesab qalıqlarını və 7 gün müddətinədək ödəniləcək debitor borcları əks etdirir və ilkin olaraq və sonradan ədalətli dəyərlə uçota alınır.

Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın məqsədləri üçün banklarla olan qalıqlar və nağd pul vəsaitləri pul vəsaitləri və onların ekvivalentləri hesab olunur.

**Maliyyə alətləri**

***İlkin qiymətləndirilmə və uçotdan silinmə***
Maliyyə aktivləri və maliyyə öhdəlikləri Təşkilatın maliyyə alətinin müqavilə müddəaları üzrə tərəfə çevrildiyi halda tanınır və ilkin olaraq ədalətli dəyər üstəgəl əməliyyat xərcləri ilə ölçülür. Maliyyə aktivləri maliyyə aktivi ilə bağlı pul vəsaitlərinin hərəkəti üzrə müqavilə hüquqlarının müddəti bitdikdə və ya maliyyə aktivi və bütün əhəmiyyətli risklər və faydalar ötürüldükdə uçotdan silinir. Maliyyə öhdəliyi ödənildiyi, dayandırıldığı, ləğv edildiyi ya da müddəti bitdiyi halda uçotdan silinir.

Maliyyə aktivləri və maliyyə öhdəlikləri sonradan aşağıda təsvir edildiyi kimi ölçülür.

***Maliyyə aktivlərinin təsnifatı və sonrakı qiymətləndirilməsi***
Sonrakı qiymətləndirmənin məqsədi üzrə maliyyə aktivləri kreditlər və debitor borclarına bölünür.

***Ədalətli dəyərinin dəyişməsi***
Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilmiş maliyyə aktivlərindən başqa bütün maliyyə aktivləri maliyyə aktivinin və ya maliyyə aktivləri qrupunun dəyərsizləşməsinə dair obyektiv sübutun olub-olmamasını müəyyən etmək üçün ən azı hər hesabat tarixində dəyərsizləşmə üzrə təhlil edilir. Dəyərsizləşməni müəyyən etmək üçün müxtəlif amillər maliyyə aktivlərinin hər bir kateqoriyası üzrə tətbiq edilir.

***Maliyyə aktivlərinin dəyərsizləşməsi və yığıla bilməməsi***
Müəyyən maliyyə aktivinin dəyərsizləşməsinə dair obyektiv sübutun olub-olmamasını müəyyən etmək üçün hər hesabat tarixində qiymətləndirmə aparılır. Bu cür sübut mövcud olduğu halda bütün dəyərsizləşmə zərərləri gəlir haqqında hesabatda tanınır. Maya dəyərində uçota alınmış aktivlər üzrə dəyərsizləşmə balans dəyəri və oxşar maliyyə aktivinin cari bazar gəlirlilik normasında diskont edilmiş gələcək pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış dəyəri arasındakı fərqdir.

***Maliyyə öhdəliklərinin təsnifatı və sonrakı qiymətləndirilməsi***
Maliyyə öhdəlikləri ticarət və digər öhdəliklərdən ibarətdir. Maliyyə öhdəlikləri sonradan effektiv faiz metodunu istifadə edərək amortizasiya olunmuş dəyərlə ölçülür. Bütün faizlə əlaqədar ödənişlər "maliyyə xərcləri" kimi təqdim edilir.

***Maliyyə alətlərinin əvəzləşdirilməsi***
Yalnız tanınan məbləği əvəzləşdirmək üçün qanuni qüvvəyə minmiş qarşılıqlı əvəzləşdirmə hüququ olduğu və xalis əsasla əvəzləşdirmək və ya eyni zamanda aktivi realizə etmək və öhdəliyi yerinə yetirmək niyyəti olduğu halda maliyyə aktivləri və öhdəlikləri əvəzləşdirilir və xalis məbləğ maliyyə vəziyyəti haqqında hesabatda göstərilir.

***Yalnız əsas məbləğin faizlərinin ödənişi (YƏMFÖ)***
Təşkilat təsnifat prossesinin ikinci mərhələsində maliyyə müqaviləsi şərtlərinin YƏMFÖ test meyarlarına uyğun olub-olmadığını müəyyən edir.

Test mərhələsinin əsas vacib prinsipi maliyyə aktivinin ədalətli dəyərinin ilkin mərhələdə tanınması və maliyyə aktivinin qüvvədə olduğu müddət ərzində dəyişməsi (məsələn, hər hansı bir təkrar ödəmə və ya premium/endirim amortizasiyası) kimi müəyyənləşdirilmişdir.

## 2. ƏHƏMİYYƏTLİ UÇOT QAYDALARININ İCMALI (DAVAMI)

***Yalnız əsas məbləğin faizlərinin ödənişi (YƏMFÖ) (davamı)***
Kreditin verilməsi zamanı ən mühüm maraq amillərindən biri pulun zaman dəyərinin və kredit riskinin nəzərə alınmasıdır. YƏMFÖ qiymətləndirməsi aparmaq üçün Təşkilat mühakimə, maliyyə aktivlərinin hansı məzənnədə istifadə edilməsi və faiz dərəcəsinin müəyyənləşdirilməsi kimi əlaqəli faktorların nəzərə alınmasını tətbiq edir.

Bundan fərqli olaraq pul vəsaitlərinin hərəkəti risklərini və ya dəyişkənliyə məruz qalmasını izah edən müqavilə şərtlərinə əsasən pul vəsaitlərinin axını yalnız ödənilmiş əsas və faiz məbləğlərindən yaranmır. Bu kimi hallarda maliyyə aktivlərinin mənfəət və ya zərər hesabatında ədalətli dəyərlə (MZHƏD) ölçülməsi tələb olunur.

***Derivativlər mənfəət və ya zərər hesabında ədalətli dəyərlə uçota alınır***
Derivativlər aşağıda qeyd edilmiş üç xüsusiyyəti özündə birləşdirən Maliyyə alətidir.

- Dəyəri müəyyən bir faiz dərəcəsinə, maliyyə aləti qiymətinə, əmtəə qiymətinə, xarici valyuta məzənnəsinə, qiymət indeksi və dərəcələrinə, kredit reytinqi və kredit indeksinə və yaxud qeyri-maliyyə dəyişkənliyi halında təmin edilən digər parametrlərə uyğun dəyişir, bu hal müqavilənin digər tərəfi üçün spesifik deyil.
- Bazar şərtlərindəki dəyişikliklərə eyni cavabın alınması gözlənilən daha kiçik oxşar müqavilələr üçün ilkin xalis investisiya tələb edilmir.
- Bu kimi hallar gələcək tarixdə həll olunur.

Təşkilat qarşı tərəflərlə derivativ əməliyyatlara daxil olur. Bunlara faiz dərəcəsi svopları, kredit şərtlərinin dəyişdirilməsi, qarşılıqlı valyuta svopları, ilkin valyuta müqavilələri, xarici valyutalar və səhmlər daxildir.

Derivativ ədalətli dəyərdə qeyd edilir və ədalətli dəyər göstəricisi müsbət olduğu halda aktivlərdə, mənfi olduğu halda isə öhdəliklərdə tanınır. Bu cür derivativlərin xüsusi dəyəri və ədalətli dəyəri ayrı ayrılqda açıqlanır.

Derivativlərin ədalətli dəyərindəki dəyişikliklər hedcinq mühasibat uçotu tətbiq edilmədiyi hallarda xalis ticarət gəlirinə daxil edilir.

***Daxili derivativlər***
Daxili derivativlər özündə kənar derivativləri də birləşdirməklə kombinə maliyyə alətinin tək derivativlərə bənzər bir şəkildə fərqləndiyini təsvir edən hibrid alətin tərkib hissəsidir.

Daxili derivativlər pul vəsaitlərinin müəyyən bir faiz dərəcəsinə uyğun olaraq dəyişdirilməli olan müqavilə ilə başqa cür tələb olunacaq pul vəsaitlərinin hərəkətlərinin bir hissəsi və ya hamısı, maliyyə aləti qiyməti əmtəə qiyməti, valyuta məzənnəsi, qiymətlər və ya dərəcələr indeksləri, kredit reytinqi və ya kredit indeksi və ya digər dəyişənlərə səbəb olur. Bir maliyyə alətinə əlavə edilmiş, lakin həmin alətdən asılı olaraq müqavilə ilə ötürülən və ya həmin alətdən fərqli bir qarşı tərəfə malik olan bir derivativ əlavə törəmə deyil, ayrıca bir maliyyə aləti hesab olunur.

Maliyyə aktivlərində yerləşdirilən derivativlər, borc öhdəlikləri və qeyri-maliyyə tərəfdaş əlaqələri ayrı-ayrı törəmə alətləri kimi qiymətləndirilmiş və ədalətli dəyərində qeyd edilmişdir. Əgər bir derivativ anlayışına (yuxarıda müəyyən edilmiş şəkildə) cavab verərlərsə, onların iqtisadi xüsusiyyətləri və riskləri əsas müqavilənin şərtləri ilə sıx əlaqədar deyildir və əsas müqavilənin özü ticarət üçün yaxud mənfəət və ya zərər hesabatında ədalətli dəyərlə təyin edilməsi üçün nəzərdə tutulmamışdır. Əsas müqavilədən ayrılmış daxili derivativlər ticarət portfelində ədalətli dəyərdə əks etdirilən dəyişikliklərlə təqdim edilir.

Təşkilat bu şəkildə maliyyə öhdəlikləri və qeyri-maliyyə müqavilələrinə daxil edilmiş derivativlərin uçotunu aparır. Maliyyə aktivləri biznes modelinə və YƏMFÖ qiymətləndirmələrinə əsasən təsnifləşdirilir.

***Alınmış borclar və digər borc götürülmüş məbləğlər***
İlkin tanınmadan sonra, alınmış borclar və borc götürülmüş məbləğlər, amortizasiya edilmiş xərclər kimi ölçülür. Amortizasiya edilmiş xərclər, effektiv faiz dərəcəsinin daxili hissəsi olan maliyyə xərcləri, hər hansı bir endirim, və ya premiya fondları nəzərə alınaraq hesablanmaqdadır. Həm kapital, həm də öhdəlik komponentlərini özündə cəmləşdirən mürəkkəb maliyyə alətləri dərc olunma tarixində ayrılır.

## 2. ƏHƏMİYYƏTLİ UÇOT QAYDALARININ İCMALI (DAVAMI)

***Alınmış borclar və digər borc götürülmüş məbləğlər (davamı)***
Təşkilatlar, qeyri-törəmə alətlərinin mühasibat yazılışlarını tərtib edərkən, ilk öncə bu alətlərin mürəkkəb olub-olmadığını müəyyən edir və daha sonra bu alətin hər bir komponentini ayrı ayrılıqda, maliyyə aktivi, öhdəliyi və ya kapital kimi, MUBS 32 əsasında, təsnifləşdirir. Geri ödəniləbilən alətlərin öhdəlik və kapital komponentlərinin təsnifi, bəzi səhmdarlar üçün bir variantın istifadəsi baxımından iqtisadi cəhətdən sərfəli görünsə də, geri ödəniş zamanı dəyişiklik səbəbiylə yenidən nəzərdən keçirilə bilməz. Mürəkkəb maliyyə alətinin ilkin sərmayəsinin kapital və öhdəlik komponentlərinə ötürülməsi zamanı, kapital, öhdəlik alətinin bütün ədalətli dəyərinin qalıq məbləğinin ixracından sonrakı halı olaraq dəyərləndirilir və bu məbləğ öhdəliklər üçün ayrıca qeyd olunur. Hər hansı bir mürəkkəb maliyyə alətinə bağlı olan törəmə tərkibli alətlərin dəyəri, kapitaldan fərqli olaraq, öhdəlik komponentlərinə daxil edilir.

Təşkilatlar kapital və öhdəlik bölgüsünü müəyyən etdikdən sonra, sonrakı mərhələ olaraq, öhdəliklərin ayrı ayrılıqda nəzərə alınması vacib olan törəmələrə malik olub-olmadığını müəyyənləşdirməlidir.

***Mənfəət və ya zərər hesabında ədalətli dəyərlə tanınan maliyyə aktivləri və öhdəlikləri***
Bu kateqoriyaya aid olan maliyyə aktivləri və öhdəlikləri, kommersiya məqsədli olmayan və ilkin mühasibat prosesi zamanı rəhbərlik tərəfindən müəyyən olunan və ya icbari şəkildə MHBS 9 nəzdində həqiqi dəyəri ölçülə bilən kateqoriyalardır.

- Müvafiq təsnifat mühasibat uçotunda fərqli tanınma halında yarana biləcək uyğunsuzluqları aradan qaldırır və ya əhəmiyyətli dərəcədə azaldırsa və ya
- Borclar risklərin idarə edilməsi siyasəti və ya investisiya strategiyasına əsasən idarə olunan alətlərdirsə və onlar ədalətli dəyər əsasında qiymətləndirilmiş maliyyə öhdəlikləri qrupunun bir hissəsidirsə və ya
- Bir və ya daha çox derivativi olan öhdəliklər, əksər hallarda istənilən pul vəsaitlərinin hərəkəti əhəmiyyətli dərəcədə dəyişməyincə müqavilə ilə və ya bənzər bir alətlə əlaqədar derivativlərin ayrılmasının qadağan edildiyi hesab edilirsə

Mənfəət və ya zərər hesabına ədalətli dəyərlə tanınan maliyyə aktivləri və maliyyə öhdəlikləri ədalətli dəyərdə maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilir.

Ədalətli dəyərdəki dəyişikliklər Təşkilatın öz kredit riskindəki dəyişikliklər səbəbindən öhdəliklərin ədalətli dəyərində hərəkətlər istisna olmaqla, mənfəət və zərər hesabatında qeydə alınır. Ədalətli dəyərdəki dəyişikliklər digər məcmu gəlirlər vasitəsilə öz kredit ehtiyatında qeydə alınır və mənfəət və zərərə geri qaytarılmır. Mənfəət və ya zərər hesabatında əks etdirilən alətlər üzrə əldə edilmiş və ya hesablanmış faizlər, faiz gəliri və ya faiz xərci ilə, hər hansı bir endirim / mükafat və alət əməliyyatının xərclərini alətin ayrılmaz bir hissəsi kimi nəzərə almaqla və effektiv faiz dərəcəsindən istifadə etməklə hesablanır.

Kapital alətlərinin payı üzrə dividend gəlirləri, ödəniş hüququ təsis edildikdə, digər əməliyyat gəlirləri kimi mənfəət və ya zərərdə qeydə alınır.

***Maliyyə aktivləri***
Maliyyə aktivindən pul vəsaitlərinin axınını almaq hüququ başa çatdıqda maliyyə aktivinin (və ya mümkün olduqda, maliyyə aktivinin bir hissəsi və ya oxşar maliyyə aktivlərinin bir hissəsi) tanınması dayandırılır.

Təşkilat maliyyə aktivini yalnız və yalnız aşağıdakı hallarda köçürə bilər:

- Təşkilat maliyyə aktivlərindən pul vəsaitlərinin axınını əldə etmək üçün müqavilə hüquqlarını köçürmüşdür, və ya,
- Pul vəsaitlərinin hərəkəti hüququnu saxlayır, lakin "ötürmə" razılaşması ilə üçüncü tərəfə maddi gecikmə olmadan alınan pul vəsaitlərinin hamısını tam ödəmək öhdəliyi götürür. Təşkilatın maliyyə aktivi üzrə pul vəsaitlərinin axınını ("əsas aktiv") almaq üzrə müqavilə hüquqlarını saxladığı əməliyyatlardır, lakin həmin pul vəsaitlərinin hərəkəti bir və ya bir neçə müəssisəyə ("son alıcılara"), aşağıdakı üç şərt yerinə yetirildikdə ödənilir:
- Təşkilat, alınmış məbləğin tam ödənilməsi və faiz dərəcələrinə uyğun faiz məbləğləri ilə qısamüddətli avanslar istisna olmaqla, orijinal aktivdən ekvivalent məbləğlərin yığımını həyata keçirmədiyi halda, alıcılara məbləğləri ödəmək öhdəliyi yoxdursa

## 2. ƏHƏMİYYƏTLİ UÇOT QAYDALARININ İCMALI (DAVAMI)

***Maliyyə aktivləri (davamı)***

- Təşkilat potensial alıcılara təminat olaraq təqdim etdiyi aktivdən başqa, hər hansı bir digər orijinal aktivi sata və ya girov qoya bilməzsə
- Təşkilat potensial alıcılar adına toplanan pul vəsaitlərini əhəmiyyətli gecikmə olmadan təhvil vermək məcburiyyətindədirsə

Əlavə olaraq, Təşkilat pul və pul ekvivalentlərində investisiyalar istisna olmaqla, yığım tarixi və potensial alıcılara lazım olan pul köçürmə tarixləri arasında olan dövr ərzində qazanılmış faizlər də daxil olmaqla, bu cür pul axınlarını yenidən investisiya etmək hüququna malik deyildir. Transfer yalnız tanınmanın dayandırılması hallarına uyğunlaşdırılır, həmçinin :

- Təşkilat aktivin bütün risklərini və mükafatlarını əhəmiyyətli dərəcədə ötürmüşdür və ya,
- Təşkilat aktivin bütün risklərini və mükafatlarını əhəmiyyətli dərəcədə nə ötürmüş nə də saxlamamışdır, lakin aktiv üzrə nəzarətin ötürülməsini təmin etmişdir.

Təşkilat, bütün əsaslı riskləri və mükafatlarını əhəmiyyətli dərəcədə köçürmədikdə və ya əlində saxlamadıqda, yalnız aktivin nəzarətini özündə saxlayıbsa, aktiv yalnız Təşkilatın davamlı təsirinin əhəmiyyətlilik dərəcəsi ilə tanınır və bu halda Təşkilat həmçinin əlaqəli öhdəliyi tanımalıdır. Köçürülmüş aktiv və əlaqəli öhdəlik Təşkilatın əlində saxladığı hüquq və öhdəlikləri əks etdirən əsaslarla ölçülür. Köçürülmüş aktiv üzərində təminat şəkli alan davamlı müdaxilə və təsir gücü, aktivi orijinal balans dəyərinin altında və Təşkilatın ödəməsi tələb oluna biləcək maksimum məbləğlə ölçülür. Davamlı təsir köçürülmüş aktiv üzrə yazılı və ya satın alınan bir variantın (və ya hər ikisinin) formasını alırsa, Təşkilatın aktivi yenidən satın alma prosesində ödəməsi lazım gələn dəyərdə ölçülür. Ədalətli dəyərlə ölçülmüş bir aktiv üzrə yazılı təklif seçimi olması halında, Təşkilatın davam edən təsirinin əhatəsi, köçürülmüş aktivin ədalətli dəyəri və seçmə əməliyyat qiymətinin aşağı olması şərtlərilə məhdudlaşır.

***Maliyyə öhdəlikləri***

Maliyyə öhdəliklərinin tanınması öhdəliklərin sıfırlanması, ləğv edilməsi ya da vaxtının bitməsi hallarında dayandırılır.

Mövcud maliyyə öhdəliyi eyni kredit verəndən əhəmiyyətli dərəcədə fərqli şərtlər ilə əvəz edildikdə və ya mövcud öhdəliyin şərtləri əhəmiyyətli dərəcədə dəyişdirildikdə, belə bir mübadilə və ya dəyişiklik öz öhdəliklərinin tanınmasının dayandırılması və yeni öhdəliklərin tanınması kimi qəbul edilir. Orijinal maliyyə öhdəliklərinin balans dəyəri və ödənilməli ödənişlər arasındakı fərq mənfəət və zərərdə tanınır.

**Maliyyə aktivlərinin dəyərdən düşməsi**

***Gözlənilən Kredit Zərərlərinin tanınması prinsiplərinə ümumi baxış***

Təşkilat hər hesabat dövrünün sonunda, ilkin tanınmadan sonra maliyyə alətlərinin kredit riskinin əhəmiyyətli dərəcədə artıb-artmadığını, maliyyə alətlərinin qalan faydalı ömrü ərzində dəyərsizləşmə riskindəki dəyişikliyi diqqətə alaraq qiymətləndirmə aparmaq siyasətini həyata keçirmişdir.

Yuxarıdakı prosesə əsaslanaraq Təşkilat kreditlərini aşağıda açıqlandığı şəkildə Mərhələ 1, Mərhələ 2, Mərhələ 3 və dəyərsizləşmiş (Satın alınan və ya yaradılan kredit dəyərsizləşməmiş aktivlər (AYKD)) kreditlər kimi qruplaşdırır.

*Mərhələ 1:* Kreditlərin ilkin tanınması, Təşkilat 12 aylıq GKZ-ə əsaslanan ehtiyat məbləğini tanıyır. Mərhələ 1 kateqoriyasında qruplaşdırılan kreditlər həmçinin kredit riski artmış Mərhələ 2-dən yenidən təsnifləşdirilmiş kreditləri də özündə cəmləşdirir.

*Mərhələ 2:* Borc verildikdən sonra kredit riskində əhəmiyyətli artım baş verdikdə, Təşkilat kreditin gözlənilən faydalı ömrü ərzində yarana biləcək zərərlər üçün ehtiyat yaradır. Mərhələ 2 kreditləri əlavə olaraq, kredit riskinin artdığı və Mərhələ 3-dən yenidən təsnifləşdirilmiş kreditləri də özündə cəmləşdirir.

*Mərhələ 3:* Əhəmiyyətli dərəcədə dəyərsizləşmə müşahidə olunan kreditlər. Təşkilat kreditin gözlənilən faydalı ömrü ərzində yarana biləcək zərərlər üçün ehtiyat yaradır.

## 2. ƏHƏMİYYƏTLİ UÇOT QAYDALARININ İCMALI (DAVAMI)

***Gözlənilən Kredit Zərərlərinin tanınması prinsiplərinə ümumi baxış (davamı)***

AYKD: Alınan və ya yaradılan kredit aktivləri üçün ilkin tanınmada dəyərsizləşmə müşahidə olunan maliyyə aktivləridir. AYKD aktivləri orjinal tanınmalar sırasında ədalətli dəyərdə qeydə alınır və faiz gəlirinin sonrakı tanınmaları effektiv faiz dərəcəsinə əsaslanır. GKZ yalnız ehtimal edilən dəyərsizləşmədə növbəti dəyişiklik olduğunda tanınır və ya genişləndirilir.

Təşkilatın geri ödənilməmiş kedit məbləğlərilə bağlı bərpa olunmasına dair gözləntisi qalmadığı hallarda bütünlüklə və ya hissəvi maliyyə aktivinin ümumi balans dəyəri azaldılır. Bu, maliyyə aktivinin tanımasının (qismən) dayandırılması hesab olunur.

***Gözlənilən kredit zərərlərinin hesablanması***

Təşkilatlar effektiv faiz dərəcəsinə qədər azalmış qısamüddətli nağd pul daxilolmalarını ölçmək üçün dörd ehtimal yönümlü ssenariyə dayanaraq gözlənilən kredit zərərlərini hesablayırlar. Qısamüddətli nağd pul azalmaları müqaviləyə uyğun olaraq müəssisəyə ödənilməli pul axınları ilə müəssisənin ümumilikdə əldə etməyi gözlədiyi məbləğ arasındakı fərqdir. Gözlənilən kredit zərərlərinin hesablanmasında əsas elementlər aşağıdakılardır:

- *Defolt ehtimalı-* (Öhdəliyin yerinə yetirilməməsi ehtimalı) verilmiş zaman kəsiyində ödənilməmə ehtimalının təxmini hesablanmasıdır. Defolt ehtimalı bəzən yalnız dəyərləndirilən zaman müddətində baş verə bilər, lakin, ehiyatlar portfel daxilində davamlı olaraq saxlanılmış ola da bilər.
- *Defolt ehtimalında açıqlanma-* hesabat tarixindən sonra əsas məbləğin və faizin müqavilə ilə müəyyən edilmiş və ya hər hansı digər formada təyin edilən geri ödəmə şərtləri daxil olmaqla, təklif edilən güzəştlərdən mümkün azalmaların və gecikmiş ödəmələrə yığılmış faizlərin nəzərə alınaraq gələcək tarixdəki dofoltun açıqlama qeydlərində yaradacağı dəyişikliklərin əvvəlcədən təxmin edilməsidir.
- *Defolt halında mümkün zərərlər-* Verilmiş müddət ərzində defolt hadisəsinin baş verməsindən yaranan zərərlərin əvvəlcədən təxmin edilməsidir. Bu daha çox müqavilə üzrə məbləğlər ilə borc verənin qoyulmuş girovların realizasiyası da daxil olmaqla almağı gözlədiyi məbləğ arasındakı fərqə əsaslanır.

Gözlənilən kredit itkiləri əvvəlcədən dəyərləndirilərkən dörd müxtəlif ssenari nəzərə alınır (əsas vəziyyət, qalxış, yumşaq düşüş (enmə 1), və daha kəskin enmə (enmə 2)). Bunların hər biri müxtəlif defolt ehtimalı, defolt vəziyyətində açıqlama və defolt ehtimalında mümkün zərərlərlə əlaqəlidir. Vəziyyətdən asılı olaraq, ödənilməyən borcların ödənilmə ehtimalının və girovun dəyərinin və ya aktivin satılmasından əldə ediləcək məbləğin də nəzərə alınaraq geri qaytarılmasına dair müxtəlif ssenarilər də daxil edilə bilər.

Kredit kartları və digər dövriyyə vəsaitləri istisna olmaqla kredit zərərlərində maksimum dövr Təşkilatın hüquqi cəhətdən daha erkən müddətə tanımalı olduğu hallar istisna olmaqla maliyyə alətinin müqavilə müddəti ilə müəyyən edilir.

Dəyərsizləşmə zərərləri və azadolmalar maliyyə aktivinin balans dəyərinə müəyyən edilmiş alınmamış borc öhdəliyinə görə yaradılan gözlənilən kredit zərərləri üzrə ehtiyatlardan formalaşan modifikasiya zərərləri və ya gəlirlərindən ayrılıqda balansda və açıqlama qeydlərində öz əksini tapır. Gözlənilən kredit zərəri metodunun mexanizmlərini aşağıdakı kimi izah etmək olar:

- 1-ci mərhələ: Təşkilat hesabat tarixindən sonrakı 12 aylıq müddət ərzində maliyyə alətinin mümkün ödənilməmə ehtimalının nəticəsi kimi istifadə müddəti üzrə gözlənilən kredit zərərinin 12 aylıq dərəcəsini hesablayır. Təşkilat hesabat tarixindən sonrakı növbəti 12 aylıq müddət üçün gözlənilən ödənilməmə hadisəsinə ehtiyat məbləğini hesablayır.

Bu gözlənilən 12 aylıq ödənilməmə ehtimalları effektiv faiz dərəcəsinə yaxınlaşana qədər azadılıb, ödənilməmə hadisəsində gözlənilən itkilərin miqdarında vurularaq ödənilməmə hadisəsində açqlama qeydlərinin proqnozlaşdırılmasına istifadə olunur. Hər dörd ssenari üçün bu hesablamalar yuxarıda izah edildiyi kimidir.

## 2. ƏHƏMİYYƏTLİ UÇOT QAYDALARININ İCMALI (DAVAMI)

***Gözlənilən kredit zərərlərinin hesablanması*** **(davamı)**

- 2-ci mərhələ: Borcun kredit riski orijinaldan əhəmiyyətli dərəcədə artdıqda Təşkilat istifadə müddəti üzrə gözlənilən kredit zərəri ehtiyatı yaradır. Mexanizmlər ssenarilər də daxil olmaqla yuxarıda izah edilən digər ssenarilərlə oxşarlıq təşkil etsə də ödənilməmənin ehtimalı və ödənilməmə hadisəsində zərərlərin miqdarı maliyyə alətinin istifadə müddətinə əsasən proqnozlaşdırılır. Ehtimal olunan nağd pul ehtiyatları orijinal effektiv faiz dərəcəsinə yaxın məbləğə qədər azaldılır.
- 3-cü mərhələ: Təşkilat kredit dəyərsizləşməsi nəzərə alınan borclara gözlənilən istifadə müddəti üzrə kredit zərərləri hesablayır. Bu metod 2-ci mərhələdə verilən ödənilməmə ehtimalı 100% müəyyən edilmiş aktivlərlə oxşardır.
- Alınmış və ya yaradılmış kredit dəyərsizləşməsi müəyyən edilən aktivlər ilkin tanınmada kredit dəyərsizləşməsi hesablanan aktivlərdir. Təşkilatlar ilkin tanınmadan istifadə müddəti üzrə gözlənilən kredit zərərlərinə yalnızca yığılmış dəyişiklikləri dörd ehtimal yönümlü ssenarilərə əsaslanaraq tanıyır.
- Borc öhdəlikləri və akkreditivlər

Alınmamış borc öhdəliyinə istifadə müddəti üzrə gözlənilən kredit zərərlərini proqnozlaşdırarkən Təşkilat borc öhdəliyinin gözlənilən hissəsinin istifadə müddəti bitdikdən sonra alacağını nəzərdə tutur. Gözlənilən kredit zərəri, dörd ssenarinin ehtimal ağırlığına əsaslanan nağd pulun çəkildiyi təqdirdə, gözlənilən çatışmazlıqların bugünkü dəyərinə əsaslanır. Gözlənilən nağd pul çatışmazlığı, kredit üzrə gözlənilən effektiv faiz dərəcəsinə yaxınlaşanda təxirə salınır. Həm kredit, həm də alınmamış bir öhdəlik daxil olan kredit kartları və dövriyyə vəsaitləri üçün gözlənilən kredit zərərləri kreditlə birlikdə hesablanır və təqdim olunur. Kredit öhdəlikləri və akkreditivlər üçün gözlənilən kredit itkiləri ehtiyat məbləği içərisində tanınır.

***Digər məcmu gəlirlər içərisində balans dəyəri ilə ölçülən borc alətləri***
Digər məcmu gəlirlər içərisində balans dəyərində ölçülmüş borc alətlərinin gözlənilən kredit zərərləri bu maliyyə aktivlərinin qalıq dəyərini maliyyə vəziyyəti haqqında hesabatda azaltmır.

Bunun əvəzində, aktivlərin amortizasiya olunmuş dəyərlə ölçülməsi halında yaranacaq ehtiyata bərabər olan məbləğ, digər məcmu gəlirlərdə mənfəət və ya zərərə müvafiq yığılmış dəyərsizləşmə məbləği olaraq tanınır. Sair məcmu gəlirlərdə yığılmış zərərlər, aktivlərin silinməsi zamanı mənfəət və zərər hesabına qaytarılır.

***Alınmış və ya ilkin tanınmadan kredit dəyərsizləşməsi müəyyən olunmuş maliyyə aktivləri***
Alınmış və ya ilkin tanınmada kredit dəyərsizləşməsi müəyyən olunmuş maliyyə aktivləri üçün Təşkilat ilkin tanınmadakı zərər ehtiyatlarına yalnız yığılmış dəyişiklikləri tanıyır.

***Gələcəklə bağlı proqnoz xarakterli məlumatlar***
Gözlənilən kredit riski modellərində, Təşkilatlar aşağıdakı kimi geniş iqtisadi informasiyalara əsaslanmaqdadır:

- ÜDM artımı
- İşsizlik dərəcəsi
- Mərkəzi bankın faiz dərəcəsi
- Təsərrüfat qiymətləri indeksi

Gözlənilən kredit zərərlərinin hesablanması üçün istifadə olunan məlumatlar və modellər, maliyyə hesabatları tarixində bazarın bütün xüsusiyyətlərini əks etdirə bilməz. Belə fərqlər əhəmiyyətli dərəcədə vacib olduqda bunu əks etdirmək üçün, keyfiyyətə uyğun bəzən müvəqqəti olaraq düzəlişlər edilir.

Yuxarıda göstərilən məlumatlar yalnız məsələyə aydınlıq gətirmək məqsədilə seçilmiş ümumi iqtisadi göstəricilərdir. Praktikada əmtəə qiymətləri inflyasiya dərəcələri, valyuta məzənnələri və dövlət büdcəsinin kəsirləri kimi digər göstəricilər də istifadə oluna bilər.

***Girov qiymətləndirməsi***
Təşkilat maliyyə aktivləri üzərində kredit risklərinin azaldılması üçün mümkün olduğu qədər girovdan istifadə etməyə çalışır. Girovlar pul, qiymətli kağızlar, akkreditivlər/ zəmanətlər, daşınmaz əmlak, debitor borcları, ehtiyatlar, digər qeyri-maliyyə aktivləri və xalis müqavilələr formasında kredit alətləri kimi müxtəlif formalarda mövcud ola bilər. Girov təmin edilmədiyi halda, bu Təşkilatın maliyyə vəziyyəti haqqında hesabatında qeyd edilmir.

## 2. ƏHƏMİYYƏTLİ UÇOT QAYDALARININ İCMALI (DAVAMI)

***Girov qiymətləndirməsi (davamı)***

Mümkün olduğu təqdirdə, Təşkilat təminat kimi saxlanılan maliyyə aktivlərini qiymətləndirmək üçün aktiv bazar məlumatlarından istifadə edir. Sabit bazar qiymətinə sahib olmayan digər maliyyə aktivləri modellərdən istifadə etməklə qiymətləndirilir. Daşınmaz əmlak kimi qeyri-maliyyə girovları ipoteka brokerləri kimi üçüncü tərəflərin verdiyi məlumatlara görə və ya mənzil qiymət indeksləri əsasında qiymətləndirilir.

***Girovun ötürülməsi***

Təşkilatın siyasəti müsadirə edilmiş girovların Təşkilatın daxili əməliyyatları üçün ən yaxşı şəkildə istifadə edilə biləcəyini və ya satılmalı olduğunu müəyyən etməkdir. Daxili əməliyyatlar üçün yararlı olacağı təsbit edilmiş girovlar üçüncü şəxslərə ötürüləcəyi dəyərdən aşağı və ya orijinal təmin edilmiş aktivin balans dəyərində hesablanır. Satışın daha əlverişli olduğu müəyyənləşdirilmiş girovlar, satış üçün saxlanılan aktivlərdə, balans dəyərində (əgər aktivlər olduqda) və ya balans dəyərindən qaytarılma tarixində satış üçün çəkiləcək xərclər çıxılmaqla Təşkilatın daxili siyasətinə uyğun olaraq tanınır.

Təşkilat normal fəaliyyəti dövründə pərakəndə portfelində əmlak və ya digər aktivləri fiziki olaraq üçüncü şəxslərə ötürmür, adətən auksionda borc öhdəliyini ödəmək üçün xarici agentləri cəlb edir.

Hər hansı əlavə dəyər müştərilərə / borcalanlara qaytarılır. Bu praktikanın nəticəsi olaraq hüquqi ötürülmə prosesinə məruz qalmış yaşayış obyektləri balansda qeyd edilmir.

***Silinmələr***

Maliyyə aktivləri yalnız bərpa edilməsinin mümkün olmadığı halın təsdiq edildiyi zaman qismən və ya tam olaraq silinir. Silinəcək məbləğ yığılmış zərər ehtiyatından çox olduqda, fərq əvvəlcə ümumi balans dəyərinə tətbiq edilən ehtiyata əlavə olunur. Hər hansı bir sonrakı bərpa kredit zərərləri üzrə xərclərə hesablanır.

MHBS 7R.35L Təşkilatlardan dövr ərzində silinmiş və hələ də icra fəaliyyətinə məruz qalan maliyyə aktivləri üzrə qüvvədə olan məbləği açıqlamağı tələb edir. Bu tələb, Təşkilatın aktivi bərpa etmək üçün heç bir əsaslı gözləntiləri olmadığı təqdirdə və əlavə prosedurları icra etməkdən imtina etdikdə silməsinə imkan verən MHBS 9.5.4.4 ilə ziddiyyət təşkil edir.

***Ədalətli dəyər***

Qiymətləndirmə tarixində bazar iştirakçıları arasında aparılan əməliyyatlarda aktivin satılması zamanı alınan və ya öhdəliyin köçürülməsi zamanı ödənilən qiymətdir. Aktivin və ya öhdəliyin ədalətli dəyərini müəyyən edərkən Təşkilat mümkün dərəcədə bazarda müşahidə edilə bilən informasiyalardan istifadə edir. Əgər aktivin və ya öhdəliyin ədalətli dəyəri müəyyən oluna bilmirsə, Müəssisə müşahidə edilə bilən məlumatların istifadəsini maksimumlaşdıran və müşahidə edilə bilməyən məlumatların istifadəsini minimumlaşdıran (oxşar əməliyyatlar üçün qiymətləri, diskontlaşdırılmış pul vəsaitləri hərəkətinin təhlilini və ya emitentin xüsusi hallarda opsiyon qiymət qoyma modelini əks etdirən müqayisəli bazar yanaşmasının istifadəsi ) qiymətləndirmə mexanizmlərindən istifadə edir. İstifadə olunan məlumatlar bazar iştirakçılarının nəzərə aldığı aktiv/öhdəliyin xarakteristikalarına uyğundur.

Ədalətli dəyər qiymətləndirmə üçün məlumatların müşahidə edilə bilmə dərəcəsinə və bütünlüklə ədalətli dəyərin müəyyən olunmasında məlumatların əhəmiyyətinə əsaslanaraq müxtəlif iyerarxik kateqoriyalara bölünür:

1-ci səviyyə - ədalətli dəyər eyni aktivlər/öhdəliklərin aktiv bazardakı mövcud qiymətindən (dəyişdirilməmiş) əldə edilir.
2-ci səviyyə - ədalətli dəyər 1-ci səviyyədə göstərilən mövcud qiymətlərdən fərqli olaraq aktiv və ya öhdəlik üçün birbaşa (məs., qiymətlər) və ya dolayı yolla (qiymətlərdən əldə olunan) müşahidə edilə bilən məlumatlardan əldə olunur.
3-cü səviyyə - ədalətli dəyər müşahidə edilən bazar məlumatlarına əsaslanmayan (müşahidə edilə bilinməyən məlumatlar) aktiv və öhdəliklər üçün məlumatları özündə əks etdirən qiymətləndirmə mexanizmlərindən əldə olunur.

Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasındakı köçürmələr Təşkilat tərəfindən dəyişikliyin baş verdiyi hesabat dövrünün sonunda tanınır.

## 2. ƏHƏMİYYƏTLİ UÇOT QAYDALARININ İCMALI (DAVAMI)

***Ədalətli dəyər (davamı)***

***Müştərilərə verilmiş kreditlər***
Müştərilərə verilmiş kreditlər və avanslar təsbit edilmiş və ya müəyyən edilə bilən tarixlərdə qaytarılmaq şərtilə sərbəst surətdə alınıb satıla bilməyən qeyri-derivativ maliyyə alətləri ilə əlaqəsi olmayan debitor borclarının əldə edilməsi və ya yaradılması məqsədilə, Təşkilat tərəfindən müştərilərə avans şəklində nağd pul verildiyi zaman uçota alınır. Bu zaman Təşkilatın həmin debitor borcları üzrə alqı-satqı əməliyyatı aparmaq niyyəti olmur.

Müştərilərə verilmiş kreditlər və avanslar amortizasiya olunmuş maya dəyərində əks etdirilir. Dəyərsizləşmiş maliyyə aktivləri ilə bağlı şərtlərə yenidən baxıldıqda, yenidən baxılmış şərtlər əvvəlki şərtlərdən əhəmiyyətli dərəcədə fərqlənərsə, yeni aktiv əvvəlcə ədalətli dəyərdə uçota alınır.

***Işçilərin qısa-müddətli mükafatlandırılması***
İşçilərin qısa müddətli mükafatlandırılmasının xərci (xidmətdən sonra on iki ay ərzində olan) xidmətin göstərildiyi və diskont edilmədiyi dövrdə tanınır.

Ödənişli məzuniyyətlərin gözlənilən xərci işçilərin hüququnu artıran xidmətlər gördüyü və ya yığılmayan məzuniyyətlər zamanı isə məzuniyyətin baş verdiyi halda xərc kimi tanınır.

***Ehtiyatlar və şərti öhdəlikər***
Ehtiyatlar cari öhdəliklərin keçmiş hadisə səbəbindən Təşkilatdan iqtisadi mənbələrin məxaricinə gətirəcəyi və məbləğlərin etibarlı şəkildə hesablana bildiyi halda tanınır. Məxaricin müddəti və məbləği hələ də qeyri-müəyyən ola bilər. Cari öhdəlik keçmiş hadisələrin (misal üçün, hüquqi mübahisələr və ya yüklənmiş müqavilələr) səbəb olduğu hüquqi və konstruktiv öhdəliklərdən yarana bilər.

Ehtiyatlar hesabat tarixində mövcud olan ən etibarlı sübuta, o cümlədən, cari öhdəliklə bağlı risklərə və qeyri-müəyyənliklərə əsaslanan cari öhdəliyi yerinə yetirmək üçün tələb olunan hesablanmış məsrəf ilə qiymətləndirilir. Oxşar öhdəliklərin olduğu halda öhdəliyin ödənilməsində məxaricin tələb olunacağı ehtimalı bütün öhdəliklər sinfi nəzərə alınmaqla müəyyən edilir. Ehtiyatlar onların diskontlaşdırılmış dəyərinə qədər diskont edilir. Burada pulların vaxt dəyəri əhəmiyyətlidir. Təşkilatın üçüncü tərəfdən faktiki olaraq toplaya biləcəyi öhdəliklə bağlı hər hansı ödəniş ayrıca aktiv kimi tanınır. Lakin bu aktiv əlaqəli ehtiyatın məbləğindən artıq olmamalıdır. Bütün ehtiyatlar hər hesabat tarixində təhlil edilir və cari ən yaxşı hesablanmış qiyməti əks etdirmək üçün uyğunlaşdırılır. Cari öhdəliklərin icra olunması nəticəsində iqtisadi mənbələrin mümkün məxarici mümkün olmaması və ya çox zəif olması ehtimal edildiyi hallarda müəssisələrin birləşməsi zamanı güman olunma halı istisna olaraq öhdəlik tanınmır.

***Banklar və digər maliyyə institutlarına olan borclar***
Banklar və digər maliyyə institutlarına olan borclar, müxbir banklar tərəfindən Təşkilata nağd pul və ya digər aktivlər verildiyi andan qeydə alınır. Qeyri-törəmə maliyyə öhdəlikləri amortizasiya olunmuş maya dəyərində qeydə alınır. Bank verdiyi borcları geri aldıqda, həmin borc öhdəlikləri maliyyə vəziyyəti haqqında hesabatdan silinir və öhdəliyin balans dəyəri ilə ödənilmiş məbləğ arasındakı fərq borcun ödənilməsi üzrə yaranan gəlir və ya xərclərə daxil edilir.

***Gəlir və xərclərin uçotu.***
Faiz gəlirlərinin və xərclərinin uçotu mənfəətdə və ya zərərdə effektiv faiz üsulu ilə aparılır. Kreditlərin rəsmiləşdirilməsi haqları, kreditlərin xidmət olunması haqları və kreditin ümumi mənfəətliliyini təmin edən sair haqlar, müvafiq əməliyyat xərcləri ilə birlikdə təxirə salınaraq effektiv faiz üsulu ilə maliyyə aktivinin təxmin edilən faydalı istifadə müddəti üzrə faiz gəlirlərində amortizasiya olunur. Sair haqlar, komissiya haqları və sair gəlir və xərc maddələri mənfəət və ya zərərdə müvafiq xidmətlər göstərildiyi zaman əks olunur.

**Faiz gəlirlərinin tanınması**

***Effektiv faiz dərəcəsi metodu***
Amortizasiya edilmiş maya dəyərilə, eləcə də mənfəət və ya zərər hesabına ədalətli dəyərlə tanınan bütün maliyyə alətləri üçün faiz dərəcələri effektiv faiz dərəcəsi (EFD) metodundan istifadə etməklə tətbiq olunur.

## 2. ƏHƏMİYYƏTLİ UÇOT QAYDALARININ İCMALI (DAVAMI)

**Faiz gəlirlərinin tanınması (davamı)**

***Effektiv faiz dərəcəsi metodu (davamı)***
Faiz hesablanan maliyyə aktivlərinin faiz gəlirləri MHBS 9 əsasında digər məcmu gəlirlər hesabına ədalətli dəyərlə ölçülür, buna oxşar olaraq daha əvvəl MHBS 39 əsasında satıla bilən və ödəniş tarixinədək saxlanılan kateqoriyaları üzrə qruplaşdırılan və faiz hesablanan maliyyə aktivləri də EFD metodundan istifadə edilməkələ təyin olunur. EFD maliyyə alətinin gözlənilən istifadə müddəti ərzində və ya daha qısa müddətə, maliyyə alətinin xalis qalıq dəyərinə qədər ehtimal olunan gələcək kassa daxilolmalarına tabe tutulan faizdir. EFD (həmçinin, aktivin amortizasiya olunmuş dəyəri) satın alma zamanı hər hansı endirim və ya premium, EFD-nin daxili hissəsi olan haqq və dəyərlər nəzərə alınmaqla hesablanır. Təşkilat kreditin gözlənilən istifadə müddəti ərzində sabit geri qayıtma faizinin ən yaxşı təxminini istifadə etməklə faiz gəlirlərini tanıyır.

Buna görə də Təşkilat müxtəlif mərhələlərdə tətbiq olunan fərqli faiz dərəcələrinin və məhsulun digər xarakteristikalarının istifadə dövrünün (ön ödəmələr, faiz cərimələri və ödənişləri daxil olmaqla) təsirlərini nəzərə alır.

Əgər maliyyə aktivlərində pul vəsaitlərinin axını ilə əlaqədar olan gözləntilər kredit riskindən başqa hər hansı bir səbəbə görə yenidən nəzərdən keçirilərsə düzəliş faiz gəlirlərində artma və azalma ilə birlikdə balans hesabatına aktivin qalıq dəyərində müsbət və ya mənfi düzəliş olaraq qeyd olunur.

İcbari olaraq mənfəət və ya zərər hesabına ədalətli dəyərlə ölçülməsi tələb olunan bütün satış aktivləri və maliyyə aktivlərinin faiz gəlirləri, müqavilə faiz dərəcələri, xalis satış gəlirlərində və maliyyə aktivlərində xalis gəlir/(zərər) mənfəət və zərər vasitəsilə ədalətli dəyər istifadə olunmaqla tanınır.

***Vergilər***
Mənfəət vergisi xərci cari və təxirə salınmış vergi xərci/gəlirini əks etdirir.

***Cari vergi xərci***
Cari vergi xərci il üzrə vergi tutulan mənfəətə əsaslanır. Vergi tutulan mənfəət məcmu gəlir haqqında hesabatda göstərilmiş xalis mənfəətdən fərqlənir, çünki o, digər illərdə vergi tutulan və ya çıxılan gəlir və ya xərc maddələrini və sonradan heç zaman vergi tutulmayan və ya çıxılmayan maddələri istisna edir. Təşkilatın cari vergi xərci hesabat dövrü ərzində Azərbaycan Respublikasında qəbul edilmiş və ya faktiki olaraq qəbul edilmiş vergi dərəcələri istifadə edilməklə fərdi Təşkilat səviyyəsində hesablanır.

***Təxirə salınmış vergi xərci***
Təxirə salınmış vergi maliyyə hesabatlarında aktivlərin və öhdəliklərin balans dəyərləri və vergi tutulan mənfəətin hesablanmasında istifadə edilən müvafiq vergitutma bazası arasındakı fərq üzrə ödənilməsi və ya bərpa edilməsi gözlənilən vergidir və öhdəliklərin uçotu metodundan istifadə etməklə uçota alınır. Təxirə salınmış vergi öhdəlikləri adətən vergi tutula bilən bütün müvəqqəti fərqlər üzrə tanınır, təxirə salınmış aktivlər isə çıxıla bilən müvəqqəti fərqlərin istifadə oluna bilməsinə dair vergiyə cəlb edilən mənfəətin əldə ediləcəyi ehtimalının mövcud olduğu zaman hesablanır. Müvəqqəti fərq nə vergi mənfəətinə, nə də uçot mənfəətinə təsir göstərməyən əməliyyatda digər aktiv və öhdəliklərin ilkin tanımasından yarandığı halda belə aktivlər və öhdəliklər tanınmır.

Təxirə salınmış vergi aktivlərinin balans dəyəri hər hesabat tarixində təhlil edilir və aktivin tam və ya qismən bərpa olunacağına imkan verməsi üçün mövcud olacaq kifayət qədər vergi tutulan mənfəətlərin artıq gözlənilmədiyi halda azaldılır. Təxirə salınmış vergi öhdəliyin ödəniləcəyi və ya aktivin realizə olunacağı dövrdə gözlənilən vergi dərəcələri ilə hesablanır. Təxirə salınmış vergi məcmu gəlir haqqında hesabata aid edilmişdir. Burada verginin birbaşa kapitala aid edilən maddələr ilə bağlı olması istisna halıdır, çünki təxirə salınmış vergi də kapitala aiddir.

Təxirə salınmış vergi aktivləri və təxirə salınmış vergi öhdəlikləri aşağıdakı şərt olduğu halda əvəzləşdirilir və maliyyə vəziyyəti haqqında hesabatda xalis şəkildə göstərilir:

## 2. ƏHƏMİYYƏTLİ UÇOT QAYDALARININ İCMALI (DAVAMI)

***Təxirə salınmış vergi xərci (davamı)***

- Təşkilatın cari gəlir vergisi aktivlərini və cari gəlir vergi öhdəliklərini əvəzləşdirmək üçün qanuni qüvvəyə minmiş qarşılıqlı əvəzləşdirmə hüququ var.
- Gəlir vergilərinə aid təxirə salınmış vergi aktivləri və təxirə salınmış vergi öhdəlikləri üzrə eyni vergi tutulan Təşkilatı üzrə eyni vergi orqanı tərəfindən vergi çıxılır.
- Həmçinin, Azərbaycan Respublikasının fərdi müəssisə səviyyəsində qiymətləndirilən digər müxtəlif vergiləri mövcuddur. Bu vergilər məcmu gəlir haqqında hesabata əməliyyat xərclərin komponenti kimi daxil edilib.

***Dividendlər***

Təşkilatın dividendləri elan edib ödəmək imkanları Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada tənzimlənir.

Paylara aid olan dividendlər elan edildiyi müddətdə bölüşdürülməmiş mənfəətdən azalma şəkilində əks olunur.

## 3. UÇOT SİYASƏTLƏRİNİN TƏTBİQİNDƏ RƏHBƏRLİYİN ƏHƏMİYYƏTLİ MÜHAKİMƏSİ

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aktivlərin, öhdəliklərin, gəlir və xərclərin tanınması və qiymətləndirilməsinə dair bir sıra mühakimələr, hesablamalar və fərziyyələri həyata keçirir. Təşkilatın uçot siyasətlərinin tətbiqində maliyyə hesabatlarına ən mühüm təsir edən rəhbərliyin əhəmiyyətli mühakimələri aşağıda göstərilib.

***Təxirə salınmış aktivlərin tanınması***

Təxirə salınmış vergi aktivlərinin tanınması dərəcəsi çıxıla bilən müvəqqəti fərqlərin istifadə oluna bilməsi üçün Təşkilatın gələcək vergiyə cəlb edilən mənfəətin əldə edilməsi ehtimalının qiymətləndirilməsinə əsaslanır. Əlavə olaraq, əhəmiyyətli mühakimə istənilən hüquqi və ya iqtisadi məhdudiyyələrin təsirinin və ya müxtəlif vergi yurisdiksiyalarında qeyri-müəyyənliklərin qiymətləndirilməsində tələb olunur.

***Hesablamanın qeyri-müəyyənliyi***

Aktivlərin, öhdəliklərin, gəlirlərin və xərclərin tanınması və qiymətləndirilməsi üzrə ən əhəmiyyətli təsirə malik olan hesablamalar və fərziyyələr haqqında məlumat aşağıda göstərilib. Faktiki nəticələr əhəmiyyətli dərəcədə fərqlənə bilər.

***Qeyri-maliyyə aktivlərin dəyərsizləşməsi***

Dəyərsizləşmə zərəri aktivin və ya pul vəsaitlərini yaradan vahidin balans dəyərinin bərpa edilə bilən məbləğindən artıq olduğu məbləğdə tanınır. Bərpa edilə bilən məbləği müəyyən etmək üçün rəhbərlik hər bir pul vəsaitlərini yaradan vahiddən pul vəsaitlərinin gözlənilən gələcək hərəkətini qiymətləndirir və həmin pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış dəyərini hesablamaq məqsədilə münasib faiz dərəcəsini müəyyən edir. Pul vəsaitlərinin gözlənilən gələcək hərəkətinin qiymətləndirilməsi prosesində rəhbərlik gələcək əməliyyat nəticələri haqqında fərziyyələri edir. Bu fərziyyələr gələcək hadisələrə və hallara aiddir, Faktiki nəticələr dəyişə bilər və növbəti maliyyə ili ərzində Təşkilatın aktivlərində əhəmiyyətli düzəlişlərə səbəb ola bilər.

**Köhnələn qeyri-maddi aktivlər,torpaq,tikili və avadanlıqların faydalı ömrü**

İdarəetmə, hər bir hesabat tarixində, qeyri-maddi aktivlərin faydalı ömrünü qiymətləndirərək, aktivlərin gözlənilən faydasını Təşkilata təqdim edir. Dəyər balans dəyəri 7 və 8-ci qeydlərdə təhlil edilir.

## 4. STANDARTLAR, ŞƏRHLƏR VƏ MÖVCUD STANDARTLARA DÜZƏLİŞLƏR

***2022-ci ildə qüvvədə olan standartlar, şərhlər və mövcud standartlara düzəlişlər***

Aşağıdaki yeni standartlara uyğun olaraq, mövcud standartlara yenidən baxılması və düzəlişlər BMSŞ tərəfindən verilmişdir, hansı ki, 1 yanvar 2022-ci il tarixindən başlayaraq effektiv hesab edilir və Təşkilat tərəfinfən qəbul edilimişdir:

| Standartın nömrəsi | Adı | Qüvvəyə minmə tarixi |
|---|---|---|
| BMHS 16 | Covid-19 ilə əlaqədar icarə güzəştləri | 1 Yanvar 2021 |
| BMHS 3 | Konseptual çərçivəyə istinad edilməsi | 1 Yanvar 2022 |
| BMUS 37 | BMUS 37-ə edilmiş düzəlişlər- Ağır şərtli müqavilələr – Müqavilənin yerinə yetirilməsinin dəyəri | 1 Yanvar 2022 |
| BMUS 16 | Torpaq, Tikili və Avadanlıq: İstifadədən əvvəl gəlir | 1 Yanvar 2022 |
| ***2018-2020 dövrü üzrə illik təkmilləşdirmələr*** | | |
| BMHS 10 və BMUS 28 | Bir sərmayəçi ilə asılı və ya ortaq şirkət arasında aktivlərin satışı və ya qatqısı | 1 Yanvar 2022 |
| BMUS 1 and BMHS Təcrübə Bəyanatı 2 | Uçot Siyasətinin Açıqlanması | 1 Yanvar 2022 |
| BMUS 8 | Uçot Siyasətinin Açıqlanması və Uçot Təxminlərinin | 1 Yanvar 2022 |
| BMUS 12 | Bir əməliyyatdan yaranan aktiv və öhdəliklərlə bağlı təxirə salınmış vergi | 1 Yanvar 2022 |

***Qüvvəyə hələ də minməmiş və Təşkilat tərəfindən erkən qəbul edilməmiş standartlar, şərhlər və mövcud standartlara düzəlişlər***

Bu maliyyə hesabatlarının təsdiq olunduğu tarixə dərc olunmuş, lakin qüvvəyə minməmiş aşağıdakı standartlar, şərhlər və mövcud standartlara düzəlişlər hələ qəbul edilməmişdir:

| Standartın nömrəsi | Adı | Standartın nömrəsi |
|---|---|---|
| BMHS 17 | Sığorta müqavilələri | 1 Yanvar 2023 |
| BMUS 1 | Öhdəliklərin cari və ya uzunmüddətli kimi təsnifatı | 1 Yanvar 2023 |

***BMHS 16 İcarə***

BMHS 16 "İcarə" standartında edilmiş dəyişikliklər icarəçilər tərəfindən COVID - 19 pandemiyasının birbaşa nəticəsi olaraq meydana çıxan, lakin icarə dəyişiklikləri hesab edilməyən (icarə dəyişikliklərinin mövcud olmadığını sübut edən müəyyən şərtlərə cavab verdiyi halda) icarə güzəştlərini hesaba almağa imkan verən praktiki məqsədəuyğunluq təmin etmişdir.

***BMHS 17 Sığorta müqavilələri***

BMHS 17 Sığorta müqavilələri, bağlanılmış sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Bu, həm də oxşar prinsiplərin keçirilmiş təkrarsığorta müqavilələrinə və verilmiş ixtiyari iştirak xüsusiyyətləri olan investisiya müqavilələrinə tətbiq edilməsini tələb edir. Məqsəd şirkətlərin həmin müqavilələri sədaqətlə təmsil etməsi üçün müvafiq məlumatların verilməsini təmin etməkdir. Bu məlumat, maliyyə hesabatlarının istifadəçiləri üçün 17 №-li MHBS çərçivəsində müqavilələrin Təşkilatın maliyyə vəziyyətinə, maliyyə fəaliyyətinə və pul vəsaitlərinin hərəkətinə təsirini qiymətləndirməyə əsas verir.

***BMUS 1 Maliyyə hesabatlarının təqdimatı***

BMUS 1-ə edilmiş düzəlişlər "Maliyyə hesabatlarının təqdimatı" öhdəliklərin maliyyə vəziyyəti hesabatında cari və ya uzunmüddətli kimi göstərilməsinə dair tələbləri aydınlaşdırmaq məqsədilə edilmişdir. Bu dəyişikliklərlə öhdəliyin yerinə yetirilməsinin mənası da aydınlaşdırılır.

## 4. STANDARTLAR, ŞƏRHLƏR VƏ MÖVCUD STANDARTLARA DÜZƏLİŞLƏR (DAVAMI)

***BMUS 16 Torpaq, Tikili və Avadanlıq***

BMUS 16-a edilmiş düzəlişlər "Torpaq, Tikili və Avadanlıq" şirkətdən torpaq, tikili və avadanlıq təyinatı üzrə istifadəsi üçün hazırlanarkən istehsal olunan əşyaların satışından əldə olunan satış gəlirlərini və əlaqədar xərcləri aktivin maya dəyərindən çıxmaq əvəzinə mənfəət və zərər daxilində tanımalarını tələb edir.

***BMHS 3 Biznes birləşmələri***

BMHS 3-ə 'Şirkət birləşmələri' düzəlişlər, şirkətlərin birləşməsi üçün mühasibat tələblərini dəyişdirmədən Maliyyə Hesabatı üçün Konseptual Çərçivə'yə bir istinad yeniləyir.

***BMUS 37 Ehtiyatlar, şərti öhdəliklər və şərti aktivlər***

BMUS 37-ə edilmiş düzəlişlər "Ehtiyatlar, şərti öhdəliklər və şərti aktivlər" bir müqavilənin zərərli olub-olmadığını qiymətləndirərkən şirkətin nəzərə aldığı xərcləri müəyyənləşdirir.

## 5. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | 2022 | 2021 |
|---|---|---|
| Banklarda olan pul vəsaitləri | 603,072 | 394,507 |
| Yolda olan pul köçürmələri | 1,099 | 7,220 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **604,171** | **401,727** |

## 6. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR

| | 2022 | 2021 |
|---|---|---|
| Fiziki şəxslərə verilmiş kreditlər-istehlak | 943,946 | 1,256,289 |
| Dəyərsizləşmə üzrə ehtiyat | (84,095) | (62,047) |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **859,851** | **1,194,242** |

Aşağıda dəyərsizləşmiş kreditlər üçün ehtiyatın hərəkəti təqdim olunur:

| | 2022 | 2021 |
|---|---|---|
| İlin əvvəlinə kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat | 62,047 | 103,027 |
| İl ərzində (bərpa olunan)/artan dəyərsizləşmə ehtiyatı | 22,048 | (40,980) |
| **İlin sonuna dəyərsizləşmiş kreditlər üzrə ehtiyat** | **84,095** | **62,047** |

## 6. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR (DAVAMI)

31 Dekabr 2022-ci və 31 dekabr 2021-ci il tarixlərinə müştərilərə verilmiş kreditlər və avanslar üzrə dəyərsizləşmə vəziyyəti aşağıdakı kimi olmuşdur:

| | 2022 | | | |
|---|---|---|---|---|
| | Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Cəmi |
| Vaxtı keçməmiş və dəyərsizləşməmiş | 852,380 | - | - | 852,380 |
| Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş | - | 497 | - | 497 |
| Fərdi şəkildə dəyərsizləşmiş (ümumi məbləğ) | - | - | 91,069 | 91,069 |
| **Cəmi** | **852,380** | **497** | **91,069** | **943,946** |
| Dəyərsizləşmə üzrə ehtiyat | - | (248) | (83,847) | (84,095) |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **852,380** | **249** | **7,222** | **859,851** |

| | 2021 | | | |
|---|---|---|---|---|
| | Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Cəmi |
| Vaxtı keçməmiş və dəyərsizləşməmiş | 1,152,602 | - | - | 1,152,602 |
| Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş | - | 65,168 | - | 65,168 |
| Fərdi şəkildə dəyərsizləşmiş (ümumi məbləğ) | - | - | 38,519 | 38,519 |
| **Cəmi** | **1,152,602** | **65,168** | **38,519** | **1,256,289** |
| Dəyərsizləşmə üzrə ehtiyat | - | (23,528) | (38,519) | (62,047) |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **1,152,602** | **41,640** | **-** | **1,194,242** |

## 6. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR (DAVAMI)

| | 2022 | | | |
|---|---|---|---|---|
| | Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Cəmi |
| | İstehlak kreditləri | İstehlak kreditləri | İstehlak kreditləri | Cəmi |
| **Vaxtı keçməmiş və dəyərsizləşməmiş** | | | | |
| İri müştərilər | 457,999 | - | - | **457,999** |
| Orta həcmli müştərilər | 274,092 | - | - | **274,092** |
| Kiçik həcmli müştərilər | 120,289 | - | - | **120,289** |
| **Cəmi vaxtı keçməmiş və dəyərsizləşməmiş** | **852,380** | **-** | **-** | **852,380** |
| **Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş** | | | | |
| ödənişin 30 gündən 90 günədək gecikdirilməsi | - | 497 | - | **497** |
| ödənişin 91 gündən 180 günədək gecikdirilməsi | - | - | - | **-** |
| ödənişin 181 gündən 360 günədək gecikdirilməsi | - | - | - | **-** |
| ödənişin 360 gündən artıq gecikdirilməsi | - | - | - | **-** |
| **Cəmi vaxtı keçmiş, lakin dəyərsizləşməmiş** | **-** | **497** | **-** | **497** |
| **Fərdi şəkildə dəyərsizləşmiş (ümumi məbləğ)** | | | | |
| ödənişin 91 gündən 180 günədək gecikdirilməsi | - | - | 1,581 | **1,581** |
| ödənişin 181 gündən 360 günədək gecikdirilməsi | - | - | 52,694 | **52,694** |
| ödənişin 360 gündən artıq gecikdirilməsi | - | - | 36,794 | **36,794** |
| **Cəmi fərdi şəkildə dəyərsizləşmiş (ümumi məbləğ)** | **-** | **-** | **91,069** | **91,069** |
| Dəyərsizləşmə üzrə ehtiyat | - | (248) | (83,847) | **(84,095)** |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **852,380** | **249** | **7,222** | **859,851** |

## 6. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR (DAVAMI)

| | 2021 | | | |
|---|---|---|---|---|
| | Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Cəmi |
| | İstehlak kreditləri | İstehlak kreditləri | İstehlak kreditləri | Cəmi |
| **Vaxtı keçməmiş və dəyərsizləşməmiş** | | | | |
| İri müştərilər | 620,865 | - | - | 620,865 |
| Orta həcmli müştərilər | 380,797 | - | - | 380,797 |
| Kiçik həcmli müştərilər | 150,940 | - | - | 150,940 |
| **Cəmi vaxtı keçməmiş və dəyərsizləşməmiş** | **1,152,602** | **-** | **-** | **1,152,602** |
| **Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş** | | | | |
| ödənişin 30 gündən 90 günədək gecikdirilməsi | - | 65,168 | - | 65,168 |
| ödənişin 91 gündən 180 günədək gecikdirilməsi | - | - | - | - |
| ödənişin 181 gündən 360 günədək gecikdirilməsi | - | - | - | - |
| ödənişin 360 gündən artıq gecikdirilməsi | - | - | - | - |
| **Cəmi vaxtı keçmiş, lakin dəyərsizləşməmiş** | **-** | **65,168** | **-** | **65,168** |
| **Fərdi şəkildə dəyərsizləşmiş (ümumi məbləğ)** | | | | |
| ödənişin 91 gündən 180 günədək gecikdirilməsi | - | - | 1,102 | 1,102 |
| ödənişin 181 gündən 360 günədək gecikdirilməsi | - | - | 4,202 | 4,202 |
| ödənişin 360 gündən artıq gecikdirilməsi | - | - | 33,215 | 33,215 |
| **Cəmi fərdi şəkildə dəyərsizləşmiş (ümumi məbləğ)** | **-** | **-** | **38,519** | **38,519** |
| Dəyərsizləşmə üzrə ehtiyat | - | (23,528) | (38,519) | (62,047) |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **1,152,602** | **41,640** | **-** | **1,194,242** |

## 6. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR (DAVAMI)

31 Dekabr 2022-ci və 31 dekabr 2021-ci il tarixinə fiziki şəxslərə verilmiş kreditlərin girov təminatı haqqında məlumat aşağıdakı kimi olmuşdur:

| | 2022 | 2021 |
|---|---|---|
| | **İstehlak kreditləri** | **İstehlak kreditləri** |
| **Təminatsız** | **703,024** | **1,013,065** |
| **Kredit təminatları:** | | |
| Digər təminatlar | 54,313 | 124,192 |
| Daşınmaz əmlak | 102,514 | 56,985 |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **859,851** | **1,194,242** |

## 7. TORPAQ, TİKİLİ VƏ AVADANLIQLAR

| | Mebel və ofis ləvazimatları | Kompüter və Rabitə avadanlığı | Nəqliyyat vasitələri | Təmir və Baxım | Cəmi |
|---|---|---|---|---|---|
| **İlkin dəyər** | | | | | |
| **1 Yanvar 2021-ci il tarixinə** | **8,509** | **8,561** | **7,151** | **-** | **24,221** |
| Əlavələr | 47,704 | 17,492 | - | 43,413 | 108,609 |
| Silinmələr | (8,506) | (8,206) | - | - | (16,712) |
| **31 Dekabr 2021-ci il tarixinə** | **47,707** | **17,847** | **7,151** | **43,413** | **116,118** |
| Əlavələr | - | 180 | - | - | 180 |
| Silinmələr | - | - | (7,151) | - | (7,151) |
| **31 Dekabr 2022-ci il tarixinə** | **47,707** | **18,027** | **-** | **43,413** | **109,147** |
| **Köhnəlmə** | | | | | |
| **1 Yanvar 2021-ci il tarixinə** | **(4,256)** | **(4,087)** | **(2,861)** | **-** | **(11,204)** |
| İl ərzində köhnəlmə | (8,804) | (3,647) | (1,430) | (3,802) | (17,683) |
| Silinmə | 4,675 | 4,256 | - | - | 8,931 |
| **31 Dekabr 2021-ci il tarixinə** | **(8,385)** | **(3,478)** | **(4,291)** | **(3,802)** | **(19,956)** |
| İl ərzində köhnəlmə | (11,802) | (4,494) | (1,343) | (5,427) | (23,066) |
| Silinmə | - | - | 5,634 | - | 5,634 |
| **31 Dekabr 2022-ci il tarixinə** | **(20,187)** | **(7,972)** | **-** | **(9,229)** | **(37,388)** |
| **Qalıq dəyər:** | | | | | |
| **31 dekabr 2021-ci il tarixinə** | **39,322** | **14,369** | **2,860** | **39,611** | **96,162** |
| **31 Dekabr 2022-ci il tarixinə** | **27,520** | **10,055** | **-** | **34,184** | **71,759** |

## 8. QEYRİ-MADDİ AKTİVLƏR

| | |
|---|---|
| **İlkin dəyər** | |
| **1 Yanvar 2021-ci il tarixinə** | **14,298** |
| Əlavələr | 1,371 |
| **31 Dekabr 2021-ci il tarixinə** | **15,669** |
| Əlavələr | 1,526 |
| Silinmələr | (870) |
| **31 Dekabr 2022-ci il tarixinə** | **16,325** |
| | |
| **Amortizasiya** | |
| **1 Yanvar 2021-ci il tarixinə** | **(3,334)** |
| İl ərzində köhnəlmə | (2,379) |
| **31 Dekabr 2021-ci il tarixinə** | **(5,713)** |
| İl ərzində köhnəlmə | (2,729) |
| Silinmələr | 870 |
| **31 Dekabr 2022-ci il tarixinə** | **(7,572)** |
| | |
| **Qalıq dəyər:** | |
| **31 dekabr 2021-ci il tarixinə** | **9,956** |
| **31 Dekabr 2022-ci il tarixinə** | **8,753** |

## 9. DİGƏR AKTİVLƏR

| | 2022 | 2021 |
|---|---|---|
| Ödənilmiş avanslar | 2,103 | 1,965 |
| Digər aktivlər | 600 | 270 |
| **Cəmi digər aktivlər** | **2,703** | **2,235** |

## 10. BANKLAR VƏ DİGƏR MALİYYƏ İNSTİTUTLARINA BORCLAR

| | 2022 | 2021 |
|---|---|---|
| Azərbaycan Mərkəzi Bankı (10.2) | 18,206 | 27,309 |
| **Cəmi banklar və digər maliyyə institutlarına olan borclar** | **18,206** | **27,309** |

**10.1** 05 İyul 2019-cu il tarixində Təşkilat ilə Azərbaycan Respublikasının Mərkəzi Bankı arasında 46,167 AZN məbləğində, qaytarma müddəti 5 il olan kredit müqaviləsi imzalanmışdır. Bu müqavilə üzrə illik faiz dərəcəsi 0.1% olmaqla 36,411 manat məbləğində kredit Təşkilata təqdim edilmişdir. Kreditin verildiyi tarixdən ilk 1 illik dövrü güzəşt müddəti müəyyən edilib və bu müddət ərzində hər hansı bir ödəniş həyata keçirilmir.

## 11. AVANS OLARAQ ÖDƏNILMIŞ MƏNFƏƏT VERGISI

| | 2022 | 2021 |
|---|---|---|
| İlin əvvəlinə qalıq | (9,842) | 9,731 |
| Cari mənfəət vergisi xərci | 332 | 20,258 |
| İl ərzində ödənilmiş mənfəət vergisi | (5,352) | (39,831) |
| **İlin sonuna qalıq** | **(14,862)** | **(9,842)** |

## 12. DİGƏR ÖHDƏLİKLƏR

| | 2022 | 2021 |
|---|---|---|
| Ödənilməkdə olan məbləğlər | 8,415 | 6,136 |
| **Cəmi digər öhdəliklər** | **8,415** | **6,136** |

## 13. NİZAMNAMƏ KAPİTALI

07.07.2017-ci il tarixində Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının Qərarı ilə Bank olmayan Kredit Təşkilatların Prudensial Tənzimlənməsinə dair qaydalar təsdiq edilmişdir. Qaydalara əsasən, bank olmayan kredit təşkilatlarının nizamnamə kapitalı 300,000 manatdan aşağı olmamalıdır və Təşkilat bu tələbi tam yerinə yetirir.

Təşkilatın girov əmanəti qəbul etməyən bank olmayan kredit təşkilatı olaraq qanunvericilikdə nəzərdə tutulan icbari ehtiyat yaratmaq öhdəliyi yoxdur. MHBS əsasında mövcud risklərin qarşısının alınması məqsədilə Təşkilatın müştərilərə verilmiş kreditləri üzrə yaradılmış əlavə ehtiyat xərcləri yerli qanunvericilikdə könüllülük prinsipinə əsaslandığı və vergi orqanları tərəfindən xərc olaraq tanınmadığı üçün Təşkilat yerli muhasibat uçotu qaydalarına əsasən MHBS əsasında yaranan xalis mənfəətdən daha çox mənfəət əldə etmiş və həmin xalis mənfəətə uyğun olaraq dividend elan etmişdir.

Cəmiyyətin nizamnamə kapitalı hər birinin nominal dəyəri 100 AZN (2021: 100 AZN) olan 16,500 (2021: 17,000) tam ödənilmiş paydan ibarətdir.

Təşkilatın nizamnamə kapitalı aşağıdakı şəxslərə məxsusdur:

| | 2022 | 2021 | 2022 | 2021 |
|---|---|---|---|---|
| | % | % | AZN | AZN |
| Əhmədzadə İlqar Müşfiq | 100 | 100 | 1,650,000 | 1,700,000 |
| | **100** | **100** | **1,650,000** | **1,700,000** |

## 14. FAİZ GƏLİRLƏRİ VƏ FAİZ XƏRCLƏRİ

| | 2022 | 2021 |
|---|---|---|
| Faiz gəliri | 160,436 | 191,624 |
| Haqq və komissiya gəlirləri | 14,585 | 60,209 |
| Kreditlərlə bağlı digər gəlirlər | 2,772 | 45,510 |
| **Cəmi faiz gəlirləri** | **177,793** | **297,343** |
| Maliyyə təşkilatlarından alınmış vəsaitlər üzrə faiz xərcləri | (28) | (144) |
| **Xalis faiz gəlirləri** | **177,765** | **297,199** |

## 15. HAQQ VƏ KOMİSSİYA XƏRCLƏRİ

| | 2022 | 2021 |
|---|---|---|
| Haqq və komissiya xərcləri | - | (91) |
| **Cəmi haqq və komissiya xərcləri** | **-** | **(91)** |

## 16. XALİS DİGƏR GƏLİRLƏR

| | 2022 | 2021 |
|---|---|---|
| Digər gəlirlər | 747 | 624 |
| Əsas vəsaitlərin satışından əldə olunan gəlir/ (zərər) | 4,983 | 519 |
| **Cəmi xalis digər gəlirlər** | **5,730** | **1,143** |

## 17. İNZİBATİ VƏ DİGƏR ƏMƏLİYYAT XƏRCLƏRİ

| | 2022 | 2021 |
|---|---|---|
| İşçilərə sərf olunan xərclər | 65,222 | 106,179 |
| İcarə xərcləri | 30,671 | 35,093 |
| Köhnəlmə və amortizasiya xərci | 25,795 | 20,063 |
| Proqram təminatına xidmət xərci | 13,208 | 12,390 |
| Təmir və baxım xərcləri | 12,136 | 10,684 |
| Peşəkar xidmətlər | 8,325 | 4,636 |
| Ödəniş sisteminin istismar xərcləri | 3,630 | 3,923 |
| Rabitə xərcləri | 3,169 | 3,563 |
| Ofis ləvazimatları | 2,964 | 1,534 |
| Mühafizə xərcləri | 2,658 | 2,943 |
| Bank xərcləri | 2,393 | 2,929 |
| Hüquq məsrəfləri və məhkəmə xərcləri | 1,614 | 1,568 |
| Mənfəət vergisi istisna olmaqla, digər vergilər | 1,008 | 585 |
| Üzvlük haqları | 379 | 253 |
| Reklam xərcləri | 250 | 40 |
| Kommunal xərclər | 249 | 1,010 |
| Sığorta xərcləri | - | 143 |
| Digər xərclər | 1,663 | 1,704 |
| **Cəmi inzibati və digər əməliyyat xərcləri** | **175,334** | **209,240** |

## 18. VERGİLƏR

Mənfəət vergisi üzrə ehtiyatlar aşağıdakılardan ibarətdir:

| | 2022 | 2021 |
|---|---|---|
| Cari mənfəət vergisi xərci | (332) | (20,258) |
| Təxirə salınmış mənfəət vergisi üzrə (xərc)/ gəlir | 3,210 | (5,078) |
| **Cəmi mənfəət vergisi** | **2,878** | **(25,336)** |

Vergi qanunvericiliyinə görə il üzrə Təşkilatların mənfəətinə 20% dərəcəsində mənfəət vergisi hesablanır.

| | 2022 | 2021 |
|---|---|---|
| Vergidən əvvəlki mənfəət | (14,909) | 126,145 |
| Qanunvericiliklə müəyyən edilmiş 20% dərəcə ilə hesablanmalı olan vergi krediti | (2,982) | 25,229 |
| Mənfəətdən çıxılmayan (xərclərin)/gəlirlərin effekti | 3,314 | (4,971) |
| **İl üzrə mənfəət vergisi xərci** | **(332)** | **20,258** |

Təşkilat, vergiləri Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən hazırlanmış vergi hesabatlarına və qeydlərinə əsasən hesablayır və bu hesablamalar Beynəlxalq Maliyyə Hesabatları Standartlarından fərqlənə bilər.

31 Dekabr 2022-ci və 31 Dekabr 2021-ci il tarixlərində bitən illər üzrə vergi bazasına təsir edən müvəqqəti fərqlər aşağıdakılardan ibarətdir:

| | 2022 | 2021 |
|---|---|---|
| İlin əvvəlinə | 19,971 | 25,049 |
| İl üzrə dəyişikliklər | 3,210 | (5,078) |
| **İlin sonuna** | **23,181** | **19,971** |

## 18. VERGİLƏR (DAVAMI)

Aşağıda təxirə salınmış verginin təhlili təqdim olunub:

| | 2022 | 2021 |
|---|---|---|
| Müştərilərə verilmiş kreditlər | 91,760 | 73,500 |
| Əsas vəsaitlər | 15,158 | 18,485 |
| Qeyri-maddi aktivlər | 3,021 | 2,414 |
| Digər öhdəliklər | 5,964 | 5,458 |
| | **115,903** | **99,857** |
| Yerli vergi dərəcəsi | 20% | 20% |
| **Təxirə salınmış vergi aktivi** | **23,181** | **19,971** |

## 19. ÖHDƏLİKLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR

***Əməliyyat icarəsi öhdəlikləri***
Təşkilatın 31 Dekabr 2022-ci il tarixinə mühüm icarə öhdəlikləri olmamışdır (2021: sıfır).

***Kapital yatırımları üzrə öhdəliklər***
Təşkilatın 31 Dekabr 2022-ci il tarixinə kapital yatırımları üzrə öhdəlikləri olmamışdır (2021: sıfır).

***Şərti öhdəliklər***
Təşkilat 31 Dekabr 2022-ci il tarixinə "İqtisadi İmkanlar Kredit İttifaqı" MMC-yə olan istifadə olunmamış kredit xəttini bağlamışdır. (2021: sıfır)

***Biznes və tənzimləyici mühit***
Azərbaycan Respublikasının kommersiya qanunvericiliyi, o cümlədən vergi qanunvericiliyi birdən çox şərh etməyə imkan verə bilər. Bundan əlavə, vergi orqanlarının iş fəaliyyəti ilə bağlı ixtiyari qərar vermə riski var.

Təşkilatın rəhbərliyi tərəfindən verilən qərarlarla, vergi qanunvericiliyi tələbləri arasında uyğunsuzluq aşkarlandıqda, vergi orqanları cərimə tətbiq edə bilərlər. Ümümiyyətlə, vergi ödəyiciləri audit ilindən üç il əvvəlki dövr üzrə vergi auditinə cəlb olunurlar. Bununla yanaşı, tamamlanmış vergi yoxlamalarının nəticələri yüksək səviyyəli vergi müfəttişləri tərəfindən nəzərdən keçirildikdən sonra əlavə vergi yoxlamaları təyin olunması ehtimalı istisna edilmir. Rəhbərlik hesab edir ki, 31 Dekabr 2022-ci il tarixində bitmiş il üzrə bütün qanunvericilik vergi hesabatlarına düzgün tətbiq olunub və Təşkilatın vergi və valyuta mövqeləri davam etdiriləcəkdir.

Təşkilatın maliyyə vəziyyəti Azərbaycanda gedən inkişaf meyllərindən təsirlənməyə davam edəcəkdir. Təşkilat, onun fəaliyyətinə aid olan bu ehtimalların Azərbaycan Respublikasında oxşar müəssisələrdən daha əhəmiyyətli olduğuna inanmır.

Hazırki maliyyə hesabatları bu qeyri-müəyyənliklərin gələcəkdə aydınlaşdırılmasından yarana biləcək hər hansı düzəlişləri nəzərdə tutmur. Bu cür düzəlişlər, əgər varsa, tanındıqları və qiymətləndirilə biləcəyi dövrdə bildiriləcəkdir.

## 20. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

| | 2022 | 2021 |
|---|---|---|
| **Müştərilərə verilmiş kreditlər** | **859,851** | **1,194,242** |
| Əhmədzadə İlqar Müşfiq oğlu | - | 170,150 |
| Talıblı Mansur Qoşqar oğlu | - | 72,626 |
| Şirəliyev Sadıx Süleyman oğlu | - | 6,593 |
| Rəhimli Elxan Rəşad oğlu | - | 6,043 |
| Abaszadə Bahadır Elnur oğlu | 11,531 | - |
| Əliyeva Elmira Cəfər qızı | 15,146 | - |
| **Faiz gəliri** | **158,213** | **191,624** |
| Babayev Qasım Aftandil oğlu | - | 1,067 |
| Müzəfərli Fuad Azad oğlu | - | 1,816 |
| Şirəliyev Sənan Sadıx oğlu | - | 497 |
| Əhmədzadə İlqar Müşfiq oğlu | 5,747 | 23,348 |
| Talıblı Mansur Qoşqar oğlu | 465 | 1,500 |
| Şirəliyev Sadıx Süleyman oğlu | 302 | 815 |
| Rəhimli Elxan Rəşad oğlu | 260 | 43 |
| Talıblı Səbuhi Qoşqar oğlu | - | 3,339 |
| Abaszadə Bahadır Elnur oğlu | 2,576 | - |
| Əliyeva Elmira Cəfər qızı | 607 | - |
| **Haqq və komissiya gəlirləri** | **16,808** | **60,209** |
| Babayev Qasım Aftandil oğlu | - | 91 |
| Müzəfərli Fuad Azad oğlu | - | 600 |
| Şirəliyev Sənan Sadıx oğlu | - | 197 |
| Əhmədzadə İlqar Müşfiq oğlu | 4,763 | 15,916 |
| Talıblı Mansur Qoşqar oğlu | - | 544 |
| Rəhimli Elxan Rəşad oğlu | 114 | 6 |
| Talıblı Səbuhi Qoşqar oğlu | - | 1,900 |
| Əliyeva Elmira Cəfər qızı | 331 | - |

Tərəflər ümumi nəzarət altında olduqda və ya bir tərəfin digər tərəfə nəzarət edə biləcəyi və ya maliyyə və əməliyyat qərarlarında digər tərəfə əhəmiyyətli təsiri və ya birgə nəzarət edə biləcəyi təqdirdə əlaqəli tərəf hesab olunur. Hər bir əlaqəli tərəf münasibətini nəzərdən keçirərkən diqqət yalnız bu əlaqənin hüquqi formasına deyil, əlaqənin mahiyyətinə yönəlib.

**Rəhbərlik ilə əməliyyatlar**
İl ərzində əsas idarəedici heyət üzvlərinə ödənilmiş kompensasiyalar aşağıda göstərilmişdir. Əsas idarəedici heyətə İdarə heyətinin üzvləri daxildir.

| | 2022 | 2021 |
|---|---|---|
| Əmək haqqı | 34,900 | 53,127 |
| **Cəmi** | **34,900** | **53,127** |

## 21. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Təşkilat daxilində risklərin idarə edilməsi maliyyə (kredit, bazar, coğrafi, valyuta, likvidlik və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirilir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

***Kredit riski***
Maliyyə aləti üzrə əməliyyat aparan bir tərəf öz öhdəliyini yerinə yetirməməsi nəticəsində digər tərəfə maliyyə zərəri vurduqda, Təşkilat kredit riskinə məruz qalır. Kredit riski Təşkilatın qarşı tərəflərlə həyata keçirdiyi kredit və digər əməliyyatlar nəticəsində ortaya çıxır ki, bu da maliyyə aktivlərinin yaranmasına gətirib çıxarır.

Təşkilatın Müşahidə Şurası tərəfindən təsdiqlənmiş Kredit Siyasətinə uyğun olaraq mümkün kredit risklərinin diversifikasiyasını və azaldılmasını təmin etmək üçün kredit portfeli üzrə bəzi limitlər müəyyən edilmişdir.

Bu limitlər aşağıda göstərilir:

1. Biznes və istehlak kreditləri portfeli üzrə limitlər;
2. İqtisadi sektorlar üzrə limitlər;
3. Regionlar üzrə limitlər;
4. Konsentrasiya limitləri; və
5. Təminatın növü üzrə limitlər

Müşahidə Şurası hər rüb limitləri müəyyən edir və onları nəzərdən keçirir. Bazar şəraitində əhəmiyyətli dəyişikliklər baş verdiyi təqdirdə həmin limitlərə yenidən baxıla bilər. Limitlərin dəyişməsi ilə bağlı təklif əvvəlcə Rəhbərlik, sonra isə Müşahidə Şurası tərəfindən təsdiqlənir.Rəhbərlik müntəzəm olaraq bütün limitlərə riayət edilməsinə nəzarət edir və bəzi limitlər (bir borcalan və ya bir-biri ilə əlaqədar borcalanlar qrupuna verilmiş kreditlərin maksimum məbləği və əlaqəli tərəflərə verilmiş kreditlərin maksimum məbləği) hər hansı yeni kreditin verilməsindən əvvəl yoxlanılır.Bundan əlavə, Azərbaycan Respublikası Mərkəzi Bankı ölkədə fəaliyyət göstərən bütün maliyyə Təşkilatları tərəfindən riayət edilməsi məcburi hesab olunan bəzi limitlər müəyyən edir və bu limitlərə müntəzəm olaraq nəzarət edir.

Kredit risklərinin idarə edilməsi Təşkilatın əməliyyatlarının tərkib hissəsidir. Risklərin idarə edilməsi funksiyası kreditlərin verilməsi və təsdiqlənməsindən onun geri qaytarılmasınadək baş verən kredit prosesinin bütün mərhələlərini əhatə edir.

ARMB-nin müəyyən etdiyi Risklərin İdarə Edilməsi Standartları və Prosedurlarına əsasən risklərin idarə edilməsi prosesinə onların müəyyən edilməsi və qiymətləndirilməsi yolu ilə risklərə nəzarət edilməsi və azaldılması, bu cür risklərlə bağlı hesabatların hazırlanması (məsələn, Rəhbərlik, komitələr və risklərin idarə edilməsi üzrə mütəxəssislər tərəfindən) və Rəhbərlik tərəfindən risk limitlərinin qəbul edilməsi aid edilir.

Risklərin idarə edilməsi funksiyasının əsas məqsədləri aşağıda göstərilir. ARMB-nin müəyyən etdiyi Risklərin İdarə Edilməsi Standartlarına görə risklərin idarə edilməsi infrastrukturu və bankların üzləşdiyi risklər kənar mütəxəssis və ya auditor tərəfindən ən azı ildə bir dəfə qiymətləndirilməlidir.

***Kreditin təsdiqlənməsi proseduru və səlahiyyətlərin müəyyən edilməsi***
Kreditin təsdiqlənməsi prosesi Təşkilatın Kredit Siyasətində nəzərdə tutulan prosedurlara uyğun olaraq həyata keçirilir. Kreditin təsdiqlənməsi səlahiyyətləri hər bir biznes vahidi üzrə Təşkilatın Rəhbərliyi tərəfindən təsdiqlənmiş limitlər çərçivəsində müəyyən edilir.

***Kreditlərin təsdiqlənməsi üzrə səlahiyyətlər***
Kreditlərin verilməsindən əvvəl Təşkilat, potensial borcalanların ətraflı qiymətləndirilməsini aparır. Bu təhlil potensial borcalanın maliyyə vəziyyətinə, bazardakı mövqeyinə, kreditin təminatı üçün qoyulmuş girovun növünə və dəyərinə, eləcə də kredit tarixçəsinə əsaslanır.

## 21. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ (DAVAMI)

***Kreditlərin təsdiqlənməsi üzrə səlahiyyətlər (davamı)***

Kreditlər üzrə monitorinq borcalan üzrə Təşkilatın daxili risk reytinqini nəzərə alaraq, kreditin ümumi müddəti ərzində müntəzəm şəkildə aparılır. Kreditin ödəmə vaxtı keçdikdə, Kredit Müqaviləsinin müddətlərində və şərtlərində, Kredit Sazişində, Girov Müqaviləsində və Azərbaycan Respublikası qanunları və Mülki Məcəlləsində göstərilən vasitələrin köməyi ilə yığılacaq. Ödənişlərin vaxtı gecikdirildiyi halda, Kredit işçisi yaranan vəziyyəti hərtərəfli təhlil edəcək və həmin vəziyyətin qarşısını dərhal almaq üçün borc alanla əlaqə saxlanılacaqdır. Bundan sonra isə problemin təbiətini və onun həll olunmasında istifadə olunan yolları müəyyənləşdirmək üçün hesabat hazırlanacaqdır.

Gecikdirilmiş ödənişlər haqqında hesabat, nəzərdən keçirilməsi və kredit işçisi tərəfindən islahedici tədbirlərin görülməsi haqda təlimatların hazırlanması üçün Təşkilatın Kredit Komitəsinə göndərilir. Kredit Komitəsi kreditləri hər ay nəzərdən keçirir, digər əlavə tədbirləri müzakirə edir. Kreditlərin böyük hissəsi üzrə faiz ödənişləri hər ay aparıldığına görə, bu Təşkilata borcalanın maliyyə vəziyyətinə dair əlavə məlumat əldə etmək imkanı verir.

Təşkilat 5,000 AZN məbləğindən yuxarı olan kreditlər üçün girov (daşınmaz əmlak, əsas vəsaitlər, dövriyyədə olan mallar, qiymətli kağızlar və s.) təminatının alınmasını nəzərdə tutur. Girovun qiymətləndirilməsi kredit mütəxəsissləri tərəfindən aparılır.

***Bazar riski***

Təşkilat bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan (a) valyuta (b) faiz dərəcəsi və (c) pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Bazar risklərinin idarə edilməsində Təşkilatın məqsədi valyuta məzənnələri və faiz dərəcələrindəki mənfi dəyişikliklərə görə Təşkilatın məruz qala biləcək açıq bazar mövqeləri üzrə mümkün zərər məbləğlərinin məhdudlaşdırılması və azaldılmasından ibarətdir. Rəhbərlik qəbul edilə bilən risklərin səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə hər gün nəzarət edir. Bu limitlər ARMB-nin Açıq Valyuta Mövqeyi Limitlərinin Müəyyən Edilməsi və tənzimlənməsi Qaydalarına uyğun olaraq müəyyən edilir. Təşkilatın hər-hansı bir valyuta üzrə açıq valyuta mövqeyi Təşkilatın məcmu kapitalının 10.0 faizindən, bütün xarici valyutalar üzrə isə 15.0 faizindən artıq olmamalıdır. Təşkilat, ehtiyac yarandıqda ARMB-nin müəyyən etdiyi limitlərdən daha sərt limitlər müəyyən edə bilər.

***Xarici valyuta riski***

Təşkilat Azərbaycan manatına qarşı xarici valyuta məzənnələrindəki dəyişikliklərin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə əlaqədar xarici valyuta riskinə məruz qalır. Rəhbərlik hər bir valyuta üzrə və ümumilikdə risklərin səviyyəsi ilə əlaqədar günün sonuna, həmçinin bir gün ərzində limitlər müəyyən edir və bu limitlərə gündəlik nəzarət edir. Təşkilat spekulyativ fəaliyyət və ya hecinq məqsədləri üçün hər hansı derivativ alətlərlə əməliyyat aparmır. Bu cür alətlər Azərbaycan Respublikasında geniş yayılmamışdır.

***Faiz dərəcəsi riski***

Təşkilat bazar faiz dərəcələrinin dəyişməsinin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə əlaqədar riskə məruz qalır. Bu cür dəyişikliklər nəticəsində faiz marjaları arta bilər, lakin faiz dərəcələri üzrə gözlənilməyən dəyişikliklər baş verdiyi təqdirdə faiz marjaları, həmçinin azala və ya zərərin yaranmasına səbəb ola bilər. Rəhbərlik faiz dərəcələrinin dəyişməsinin qəbul edilə bilən səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə hər gün nəzarət edir.

## 21. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ (DAVAMI)

***Faiz dərəcəsi riski (davamı)***

Bu cədvəldə Təşkilatın cəmi maliyyə aktiv və öhdəlikləri müqavilə üzrə faiz dərəcələrinin dəyişməsi tarixlərinə və ya ödəmə tarixlərinə görə (bunlardan hansı daha tez olarsa) təsnifləşdirilir.

| | 2022 | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **Tələb edilən və ya 1 ay ərzində** | **1-3 ay ərzində** | **3-12 ay ərzində** | **12 ay-5 il ərzində** | **5 ildən uzun müddət ərzində** | **Gecikdirilm iş Cəmi** | **Cəmi** |
| **Likvidlik riski** | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 604,171 | - | - | - | | - | 604,171 |
| Müştərilərə verilmiş kreditlər | 461,000 | 1,327 | 45,028 | 325,871 | 26,625 | - | 859,851 |
| **Cəmi sabit faiz gəliri gətirən aktivlər** | **1,065,171** | **1,327** | **45,028** | **325,871** | 26,625 | - | **1,464,022** |
| Banklar və digər maliyyə institutlarına olan borclar | - | - | - | (18,206) | | - | (18,206) |
| Digər öhdəliklər | (8,415) | - | - | - | | - | (8,415) |
| **Cəmi sabit faiz gəliri gətirən öhdəliklər** | **(8,415)** | **-** | **-** | **(18,206)** | | **-** | **(26,621)** |
| Xalis faiz həssaslığı interval | 1,056,756 | 1,327 | 45,028 | 307,665 | 26,625 | - | |
| **Yığılmış likvidlik aralığı** | **1,056,756** | **1,058,083** | **1,103,111** | **1,410,776** | **1,437,401** | **1,437,401** | |

| | 2021 | | | | | |
|---|---|---|---|---|---|---|
| | **Tələb edilən və ya 1 ay ərzində** | **1-3 ay ərzində** | **3-12 ay ərzində** | **12 ay-5 il ərzində** | **Gecikdirilmiş Cəmi** | **Cəmi** |
| **Likvidlik riski** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 401,727 | - | - | - | - | 401,727 |
| Müştərilərə verilmiş kreditlər | 243,003 | 3,319 | 172,222 | 775,698 | | 1,194,242 |
| **Cəmi sabit faiz gəliri gətirən aktivlər** | **644,730** | **3,319** | **172,222** | **775,698** | **-** | **1,595,969** |
| Banklar və digər maliyyə institutlarına olan borclar | - | (27,309) | - | - | - | (27,309) |
| Digər öhdəliklər | (6,136) | - | - | - | - | (6,136) |
| **Cəmi sabit faiz gəliri gətirən öhdəliklər** | **(6,136)** | **(27,309)** | **-** | **-** | **-** | **(33,445)** |
| Xalis faiz həssaslığı interval | 638,594 | (23,990) | 172,222 | 775,698 | - | |
| **Yığılmış likvidlik aralığı** | **638,594** | **614,604** | **786,826** | **1,562,524** | **1,562,524** | - |

## 21. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ (DAVAMI)

***Faiz dərəcəsi riski (davamı)***
Həssaslıq təhlili apararkən Təşkilat aşağıdakı mülahizələri irəli sürür:
- Həssaslıq təhlili Təşkilatın bu açıqlamaları növbəti dəfə təqdim edəcəyi dövrə qədər müddət ərzində baş verə biləcək bütün dəyişiklikləri əks etdirir. Açıqlamaların növbəti təqdim olunma dövrü adətən növbəti illik hesabat dövrü ilə üst-üstə düşür.

Təşkilat bütün mümkün dəyişikliklərin deyil, yalnız müvafiq risk dəyişənində mümkün ola biləcək dəyişikliklərin limitləri çərçivəsində təsirini açıqlayır.

Təşkilat, AZN ilə ifadə edilmiş dəyişkən faizli aktiv və ya öhdəliklərə malik olmadığına görə onun mənfəəti AZN üzrə faiz dərəcələrindəki dəyişikliklərə məruz qalmır.

Valyuta məzənnələrindəki bu cür dəyişikliklərin Təşkilatın mənfəət və ya zərərinə təsirindən başqa, kapitala hər hansı təsiri yoxdur. Yuxarıda qeyd edilən risklər, yalnız Təşkilatın funksional valyutasından fərqli valyutalarda ifadə olunan pul qalıqları üçün hesablanmışdır.

***Digər risk konsentrasiyaları***
Rəhbərlik, verilmiş kreditlərin ümumi məbləği xalis aktivlərin 10%-dən yuxarı olan borcalanlar haqqında məlumatları əks etdirən hesabatlara əsasən kredit riski üzrə konsentrasiyaya nəzarət edir və bu cür məlumatları açıqlayır. 31 Dekabr 2022-ci və 31 dekabr 2021-ci il tarixlərində Təşkilatın əhəmiyyətli risk konsentrasiyaları olmamışdır.

***Likvidlik riski***
Likvidlik riski Təşkilatın maliyyə öhdəliklərindən irəli gələn öhdəliklərin yerinə yetirilməsində Təşkilatın çətinliklərlə üzləşəcəyi riskdir. Buraya borc vəsaitlərinin geri götürülməsi tələblərinə cavab vermək və faktiki olaraq ödəmə vaxtı çatmış maliyyə alətləri ilə üzrə digər maliyyə öhdəliklərini yerinə yetirmək üçün kifayət qədər vəsaitlərin mövcud olması aiddir. Likvidlik riski aktivlər üzrə əməliyyatların yerinə yetirilmə müddətinin öhdəliklər üzrə əməliyyatların ödəmə müddətləri ilə uzlaşmadığı hallarda ortaya çıxır. Təşkilatın Rəhbərliyinin fikrincə aktiv və öhdəliklərin ödəmə müddətlərinin və faiz dərəcələrinin uyğunluğu və/və ya nəzarət olunan uyğunsuzluğu maliyyə Təşkilatlarının idarə olunması üçün əsas amillərdir.

Likvidlik risklərinin idarə edilməsi məqsədilə, Təşkilat aktiv/öhdəliklərin idarə edilməsi prosesinin bir hissəsi kimi bankların əməliyyatları üzrə gözlənilən gələcək pul vəsaitlərinin hərəkətinə hər gün nəzarət edir. Borc alınmış vəsaitlərin geri götürülməsi tələblərinə cavab vermək və həmçinin normal və gərgin vəziyyətdə vəsaitlərin ödənilməsini təmin etmək üçün Rəhbərlik və Müşahidə Şurası banklararası və digər borc vəsaitlərinin minimum səviyyəsi üzrə və ödəmə müddəti başa çatan vəsaitlərin minimum səviyyəsi üzrə limitlər müəyyən edir. Onlar, həmçinin öhdəlik bazasının diversifikasiya riski üzrə parametrlər müəyyən edir.
Təşkilatın likvidlik siyasəti aşağıdakılardan ibarətdir:
-Pul vəsaitləri hərəkətinin proqnozlaşdırılması və müxtəlif vaxt çərçivələrində likvidliyin təmin edilməsi üçün lazımi likvid aktivlərin səviyyəsinin saxlanması;
- Təşkilatın strateji məqsədlərinə uyğun maliyyə planının hazırlanması;
- Müxtəlif maliyyələşdirmə mənbələrinin saxlanması və beləliklə, Təşkilatın ölkədaxili və xarici mənbələrdən borc almaq imkanlarının artırılması;
- Yüksək likvidli və yüksək keyfiyyətli aktivlərin saxlanması;
- Məhsul bazasının vaxt çərçivələrində mövcud maliyyələşdirmə mənbələrinə uyğunlaşdırılması;
- Aktiv və öhdəliklər strukturunun vaxt çərçivələrinədək daimi monitorinqi.

Təşkilat aşağıda göstərildiyi kimi gözlənilən ödəmə müddətlərinə və likvidlik çatışmazlığına nəzarət edir:

| | 2022 | | 2021 | |
|---|---|---|---|---|
| | +1 | -1 | +1 | -1 |
| Maliyyə aktivləri | 14,640 | (14,640) | 15,960 | (15,960) |
| Maliyyə öhdəlikləri | (266) | 266 | (334) | 334 |
| **Vergidən əvvəl mənfəətə xalis təsir** | **14,374** | **(14,374)** | **15,626** | **(15,626)** |

## 22. KAPİTALIN İDARƏ EDİLMƏSİ

Kapitalın idarə olunmasında Təşkilatın məqsədi ARMB-nin kapitalın məbləği ilə bağlı müəyyən etdiyi tələblərə riayət edilməsini, Təşkilatın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin və kapitalın adekvatlıq əmsalının 20% həcmində saxlanılması üçün kifayət qədər kapital bazasının saxlanılmasını təmin etməkdir.Rəhbərlik hesab edir ki, Təşkilat 2022-ci və 2021-ci illər ərzində yerli qanunvericiliyə uyğun hesablanmış kapitalın adekvatlığı əmsalına riayət etmişdir ARMB-nin məcmu kapital adekvatlığı əmsallarının hesablanması məqsədilə, 31 Dekabr 2022-ci və 31 dekabr 2021-ci il tarixlərinə Təşkilatın məcmu kapitalı uyğun olaraq 1,526,725 AZN və 1,670,762 AZN təşkil edir.

Rəhbərlik, borc verənlər tərəfindən tətbiq edilmiş xüsusi maliyyə şərtlərinə riayət edilməsi məqsədilə aparılan təhlil çərçivəsində kapitalın strukturunu müntəzəm olaraq təhlil edərək, maliyyə hesabatlarının digər komponentləri ilə bağlı kapital və onun strukturu üzrə riskləri nəzərdən keçirir.

Rəhbərlik hesab edir ki, Təşkilat 2022-ci və 2021-ci illər ərzində kapitalın məbləği ilə bağlı bütün icbari tələblərə riayət etmişdir

## 23. HESABAT TARİXİNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

Hazırkı maliyyə hesabatlarının hesabat tarixi və hesabatın buraxılmasına icazə verilmiş tarix arasında heç bir dəyişiklik və ya dəyişiklik tələb edən əhəmiyyətli hadisə baş verməmişdir.